QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 165 (5885) **11 sentyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Regionların inkişafı Azərbaycanın hərtərəfli tərəqqisinə müsbət təsir göstərir

Səh 2

*Prezident İlham Əliyevin dövlət başçısı kimi regionların sosial-iqtisadi inkişafı ilə bağlı gördüyü işlər bölgələrin simasını büsbütün dəyişib*



3

Nəsimi - 7 böyük ozandan biri



4

Milli Məclisin sədri Almaniyaya səfər edib



4

Tramp Boltonu istefaya göndərdi



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

11 sentyabr 2019-cu il

# Regionların inkişafı Azərbaycanın hərtərəfli tərəqqisinə müsbət təsir göstərir

## *Prezident İlham Əliyevin dövlət başçısı kimi regionların sosial-iqtisadi inkişafı ilə bağlı gördüyü işlər bölgələrin simasını büsbütün dəyişib*

***Dövlətin iqtisadi siyasətində Azərbaycanın hər bir bölgəsini sürətli və tarazlı inkişaf etdirmək əsas istiqamətlərdəndir. Regionların sosial-iqtisadi inkişafını şərtləndirən dövlət proqramları, bu baxımdan, xüsusi qeyd edilməlidir. Belə ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının iqtisadi potensialın əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına, ümumən qeyri-neft sektorunun inkişafının sürətlənməsinə səbəb olmuş, Azərbaycanı, bütün bölgələrində dinamik tərəqqi yaşanan ölkəyə çevirmişdir. Hazırda ən ucqar yaşayış məntəqələrinin də dayanıqlı elektrik enerjisi, qaz, içməli su ilə təmin olunması ilə bağlı işlər görülür, rahat yollar, müasir təhsil, səhiyyə, mədəniyyət və idman obyektləri istifadəyə verilir. Dövlət proqramlarının uğurlu icrası sayəsində, regionların inkişafına, əhalinin yeni iş yerləri ilə təmin olunmasına, yoxsulluğun və işsizliyin minimuma endirilməsinə nail olunmuşdur.***




### Son 16 ilin inkişafı

Bölgələrin hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin və əvvəlki dövlət proqramlarının məntiqi davamı olan III Dövlət Proqramı ölkənin ardıcıl və dayanıqlı iqtisadi inkişafının təmin olunmasına və regionların uğurlu inkişafına əhəmiyyətli töhfəsini verdi. Sözün əsl mənasında, regionların simasını köklü surətdə dəyişdi. Regionların indiki vəziyyəti 16 il bundan əvvəlki vəziyyətindən, həqiqətən, fundamental dərəcədə fərqlənir. Xüsusi ilə, milli iqtisadiyyatın daha da inkişaf etdirilməsi istiqamətində qarşıda duran vəzifələrin yerinə yetirilməsi regionların inkişafının sürətləndirilməsini, habelə, sosial-iqtisadi problemlərin həllində sahibkarlığın rolunun artırılmasını, regionlarda müasir infrastrukturun yaradılmasını tələb edir. Son 16 ildə, məhz regionların sosial-iqtisadi inkişafına göstərilən yüksək diqqət və qayğının nəticəsi olaraq, respublikamız ictimai həyatın bütün sahələrində çoxşaxəli islahatlar aparan və investisiya cəlbedicililiyini qoruyan ölkələrdən biri kimi tanınır.

Dünyanın mötəbər "beyin mərkəzi" sayılan Davos Forumunun 2018-ci il üçün hesabatında Azərbaycanın rəqabət qabiliyyətliliyinə görə 35-ci, "Doing Business" hesabatında 25-ci yerdə qərarlaşması həyata keçirilən islahatların səmərəliliyinin bariz göstəricisidir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunları ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə keçirilən konfransda vurğulanmışdır ki, qeyri-neft sektorunun dinamik inkişafı sahəsində əldə olunan nəticələr uğurlu təməlini regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş tədbirlərdən götürür. Dövlət başçısı İlham Əliyev ötən 16 il müddətində sosial ədalət prinsipinin qorunması baxımından respublikanın hər bir bölgəsinin - potensial və imkanlar nəzərə alınmaqla - proporsional inkişafını vacib saymış, bu istiqamətdə sistemli və ardıcıl tədbirlər həyata keçirməyi hökumətin mühüm vəzifələrindən biri kimi müəyyənləşdirmişdir.

Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın yekunları ilə bağlı demişdir: "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı proqramlarının qəbul edilməsi mənim 2003-cü ildə prezident seçkiləri ərəfəsində verdiyim vədlərimdən biri idi. O vaxt demişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə, regionların inkişafı ilə məşğul olacağam, bölgələrdə olan problemlərin həlli işində öz səylərimi əsirgəməyəcəyəm. 2004-cü ilin fevral ayında birinci proqram qəbul olundu və bu gün müzakirə etdiyimiz Proqram sayca üçüncüdür.

Beləliklə, görülmüş işlər haqqında danışanda, əlbəttə ki, biz son 16 il ərzində yerinə yetirilmiş işlərə nəzər salmalıyıq. Bu işlər həm real həyatda, həm rəqəmlərdə, həm də dəyişən, abadlaşan şəhərlərdə özünü göstərir. Son 16 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf etmiş, ümumi daxili məhsul 3,3 dəfə artmışdır. Bir daha demək istəyirəm, bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,6 dəfə artmışdır. İxracımız 4,7 dəfə, valyuta ehtiyatlarımız 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Yəni bu, onu göstərir ki, Azərbaycan regionlarına və eyni zamanda, neft-qaz sektoruna, Bakı şəhərinin inkişafına böyük vəsait qoyulmasına baxmayaraq, biz öz valyuta ehtiyatlarımızı 24 dəfə artıra bilmişik. Bu, bizə imkan verir ki, gələcəyə çox böyük ümidlərlə baxaq. Azərbaycan iqtisadiyyatı bu gün dayanıqlı iqtisadiyyatdır".

### Regionların inkişafı - sahibkarlığa dövlət qayğısı



Regional inkişaf tədbirləri son 16 ildə Azərbaycanda güclü sahibkarlar sinfinin yaranmasına da yeni təkan vermişdir. Möhtərəm Prezidentin dəfələrlə bəyan etdiyi kimi, bazar iqtisadiyyatı yolunu seçmiş hər bir ölkənin sabit və davamlı inkişafında sahibkarlar sinfinin, özəl sektorun rolu misilsizdir.

Antiinhisar fəaliyyətinin gücləndirilməsi, "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının (2004-2006-cı illər) təsdiqlənməsi, ədliyyə və məhkəmə sistemində aparılan islahatlar, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilməsi, yerlərdə regional iqtisad məhkəmələrin yaradılması və s. kimi tədbirlər də, bunun əyani təcəssümü olmuşdur. Kiçik və orta sahibkarlığın güzəştli kreditlərlə maliyyələşdirilməsi, sahibkarların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan problemlərin həlli istiqamətində mühüm addımlar atılmışdır. Dövlət başçısı iqtisadiyyatın liberallaşdırılması, bazarın inhisardan, haqsız rəqabətdən azad olunması, özəl sektorun dəstəklənməsi, sahibkarlara güzəştli kreditlərin verilməsi sahəsində ciddi addımlar atmış, verdiyi bütün vədlərə sadiqlik nümayiş etdirmişdir.

Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 16 ildə uğurla icra edilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları ölkəmizin inkişafında mühüm rola malik olmaqla yanaşı, vətəndaşlarımızın sosial rifahının yüksəlişində əsaslı yer tutur. Əminliklə, demək olar ki, Azərbaycan xalqını uğurlu gələcəyə aparan bu siyasət, növbəti illərdə də davam etdiriləcək, respublikamız Prezident İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirəcək, ölkəmizin ardıcıl və dayanıqlı iqtisadi inkişafının təmin olunmasına və digər uğurlu nəticələrin əldə edilməsinə öz əhəmiyyətli töhfəsini verəcəkdir.

**RƏFİQƏ KAMALQIZI**

# Nəsimi - 7 böyük ozandan biri

***50 il öncə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin (1369 - 1417) 600 illik yubileyi keçirilmiş, bununla həm ölkəmizdə, həm də xaricdə onun həyat və yaradıcılığına maraq artmışdı. Ana dilimizdə yaratmış olduğu mükəmməl poeziya nümunələri yüz illər boyunca ozanların, muğam ustalarının dilindən düşməyərək milli mədəniyyətimizin inkişafına misilsiz töhfələr verən qüdrətli sufi şairin əlyazmalarının tədqiqi həmin vaxtdan etibarən genişlənmiş, əsərləri kütləvi tirajla çap edilmişdi.***

Təsadüfi deyil ki, İmadəddin Nəsiminin təbliğində xüsusi yeri olan film də məhz ulu öndər Heydər Əliyevin sovet Azərbaycanında hakimiyyətdə olduğu zamanda- İsa Hüseynovun (Muğanna) ssenarisi əsasında rejissor Həsən Seyidbəyli tərəfindən 1973-cü ildə çəkilmiş, baş rolun ifaçısı, o dövrdə gənc olan istedadlı aktyorumuz Rasim Balayevin yaratdığı obraz xalqımız tərəfindən böyük sevgi ilə qarşılanmışdı.

Azərbaycan prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü ildə imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncama əsasən işıq üzü görən, oxuculara təqdim və ölkə kitabxanalarına hədiyyə edilən nəşrlər arasında, heç şübhəsiz, Nəsiminin əsərləri də yer almışdı. Hər kəsə o da yaxşı məlumdur ki, dövlət başçımız Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq içərisində olduğumuz 2019-cu ili "Nəsimi ili" elan edib. Prezidentin bu sərəncamından irəli gələrək il ərzində xalqımızın ədəbi və fəlsəfi fikir tarixində dərin iz qoymuş şair haqqında çox sayda elmi və mədəni tədbir keçirilib, araşdırmalar aparılıb, o cümlədən kütləvi informasiya vasitələrində sanballı məqalələr dərc olunub.



*Əli Həsənov*
*Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi*

Tədbirlər davam edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkiləcək. Bu barədə yayılan açıqlamadan xəbərdarsınız ki, böyük şairin dünya əhəmiyyətli poeziyasının beynəlxalq aləmdə təbliği, xatirəsinin əbədiləşdirilməsi, Azərbaycanın ədəbi və mədəni irsinin tanıdılması məqsədi daşıyan bu nəcib təşəbbüsə respublikamızın bütün bölgələrində ictimaiyyət nümayəndələri, həmçinin dövlət və hökumət qurumlarının, diplomatik korpusun, icra hakimiyyətləri orqanlarının, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və könüllü gənclər qoşulacaqlar.

Zənnimcə, "Nəsimi ili"nə gözəl töhfələrdən birini də "Youtube" kanalındakı hesabına yerləşdirdiyi son bəstəsi ilə soydaşımız, Azərbaycan əsilli Britaniya sənətçisi Sami Yusif verdi. Onun "Şur" muğamının ladları üzərində gəzişərək ərsəyə gətirdiyi "Nəsimi" kompozisiyası sosial şəbəkələrdə qısa zamanda populyarlaşdı və böyük rəğbətlə qarşılandı. Müntəzəm olaraq Azərbaycana gələn, ötən ilin sentyabrında Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşən Nəsimi- şeir, incəsənət və mənəviyyat festivalında iştirak etmiş Sami kimi məşhur, açıq konsertlərinə yüz minlərlə tamaşaçı toplanan bir sənətçinin klassik poeziyamızın pərəstişkarı olması, mənəvi dünyamızın incilərini yeni və peşəkar formada bütün dünyaya yayması, əlbəttə, təqdirə layiqdir.

Onun xalq çalğı alətlərimizin müşayiəti ilə, milli, klassik və müasir musiqi elementlərini sintez edərək, xanəndə Təyyar Bayramovun, digər sənət adamlarımızın ifasından, bacarığından uğurla yararlanaraq hazırladığı parçanı internetin verdiyi imkanlar sayəsində işə gələrkən yolda dinlədim. Bir dinləyici kimi zövqümü oxşadı. Odur ki, türk dünyasının 7 böyük ozanından biri sayılan Nəsiminin "Sığmazam" rədifli qəzəlinin bu cür ecazkar, ovsunlayıcı musiqiyə çevrilməsinə əmək sərf etmiş hər kəsə təşəkkür edir, böyük məmnuniyyətlə videosunu sizlərlə- öz Facebook dostlarımla paylaşıram. Paylaşıram həm də ona görə ki, Heydər Əliyevin və İlham Əliyevin Nəsimi kimi tarixi şəxsiyyətlərimizi, mütəfəkkirlərimizi cəmiyyətimizin və bütün dünyanın nəzərində ucaltmaqla standart məkan qəliblərinə sığmadıqları barədə qənaətimi bir daha sizlərlə bölüşüm:

## Naxçıvanda Aşura mərasimi keçirilib

Ümummilli liderimiz Heydər Əliyev deyib: "Bizim mənəvi, islami dəyərlərimiz nəsillərdən-nəsillərə keçib, yaşayıb, bu günlərə gəlib çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük mənəvi sərvətidir".



Bu gün muxtar respublikada dini-mənəvi dəyərlərimiz qorunub yaşadılır, İslam elmi cəhətdən öyrənilir və təbliğ edilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Cümə məscidində keçirilən Aşura mərasimində iştirak edib.

Mərasimdə "Qurani-Kərim"dən ayələr oxunub, dualar edilib, ehsan verilib. Dindar Ağalar Bayramov deyib: Muxtar respublikamız inkişaf edir, abadlaşır, quruculuq işləri aparılır. Bununla yanaşı, mənəvi dəyərlərimiz də qorunur, yeni məscidlər tikilir, dindarlar üçün ibadət şəraiti yaradılır. Aşura mərasimlərinin İslamın dəyərlərinə uyğun qeyd olunması da bu tədbirlərin davamıdır. Ağalar Bayramov dini-mənəvi dəyərlərimizin yaşadılması sahəsində həyata keçirilən tədbirlərə görə muxtar respublika dindarları adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Məhərrəm ayının 10-cu günü - Aşura İslam tarixinə İmam Hüseyn və tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi gün kimi daxil olub. İmam Hüseyn islahatçı olub, insanları doğruya dəvət edib, bu yolda öz həyatını və yaxınlarını qurban verib. Bu mənada Aşura mərasimləri yalnız yas tutmaq deyil, həm də İmam Hüseynin yolunun davam etdirilməsi, İslam dininə sadiqlik deməkdir. Muxtar respublikada keçirilən Aşura mərasimlərində də insanlar bu mənəvi dəyərlər ətrafında həmrəy olub, məscidlərdə qanvermə aksiyaları keçirilib, ehtiyacı olanlara həyat verilib.

## Musa Quliyev: Dövlətimizin həyata keçirdiyi sosial siyasət cəmiyyətimizdə rəğbətlə qarşılanır



"Dövlətimizin həyata keçirdiyi sosial siyasət cəmiyyətimizdə rəğbətlə qarşılanır. Bu il ölkə Prezidenti tərəfindən iki dəfə böyük sosial paket qəbul olunub. Bunun nəticəsində də əhalinin rifah halı daha da yaxşılaşır". Bu fikirləri YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Musa Quliyev deyib. M.Quliyev bildirib ki, sosial paketdə 30-dan çox fərman və sərəncam öz əksini tapıb. Bu paket vasitəsilə 4 milyondan çox vətəndaşımızın sosial rifah halı yaxşılaşıb. Pensiyalar, sosial müavinətlər, təqaüdlər, əməkhaqqı artıb.

"Ölkədə minimum əməkhaqqı iki dəfəyə yaxın yüksəlib. Təxminən büdcədən 5 milyard 200 milyon əlavə vəsait sərf olunub. Bizim dövlət sosial müdafiənin ünvanlıq sisteminə üstünlük verilir. Yəni, kimin ehtiyacı varsa ona verilsin, kimin ehtiyacı yoxdursa ona verilməsin. "Uşaq pulu" müavinəti əvvəllər ehtiyacı olan və olmayan hər bir kəsə verilib. İndi isə Azərbaycanda bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq əhalinin gəlirlərində də təbəqələşmə var. Elə insanlar var ki, yüksək gəlirləri var və onların uşaq puluna ehtiyacı yoxdur. Amma elə ailələr vardır ki, onların ehtiyacları var. Ona görə də bu məsələ ciddi təhlil olunmalı, sonra bu barədə qərar verilməlidir. Fikrimcə, bu məsələdə ünvanlılıq prinsipi tətbiq olunmalıdır. Bu mənim şəxsi düşüncəmdir"-deyə, M.Quliyev vurğulayıb.

## "Paşinyanın Dağlıq Qarabağla bağlı səsləndirdiyi bəyanat danışıqlar prosesinin gedişinə zərbə vurur"



Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ ilə bağlı səsləndirdiyi bəyanat münaqişənin nizamlanmasına və danışıqlar prosesinin gedişinə zərbə vurur. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında ATƏT PA-nın sədri Giorgi Tsereteli söyləyib.

ATƏT PA-nın sədri deyib: "Düşünürəm ki, münaqişənin həllinə nail olmaq məqsədi daşımayan və ölkələr arasındakı müzakirələrə töhfə verməkdən uzaq olan bu cür bəyanatların səsləndirilməsi hər zaman sülh prosesinə zərbə vurur. ATƏT məkanında, Cənubi Qafqazda mövcud olan Dağlıq Qarabağ münaqişəsi bütün dünyanın, eləcə də bizim təşkilatımızın diqqət mərkəzindədir. Biz daha çox konstruktiv bəyanatlar eşitmək istəyirik və konkret addımlar gözləyirik". Onun sözlərinə görə, münaqişənin ədalətli həllinə nail olmaq üçün fikir ayrılıqlarını və fərqli düşüncələri bir araya gətirib ortaq dil tapmaq lazımdır. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə yalnız beynəlxalq hüquq çərçivəsində nail olmaq mümkündür.

## Paşinyan ağlasığmaz qərarlar verir



Son zamanlar Nikol Paşinyan proqnozlaşdırılması mümkün olmayan ən gözlənilməz olub və gözlənilməz, ağlasığmaz qərarlar qəbul edir. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Past" qəzetində yazı dərc edilib.

Məlumata görə qəzet hökumətdəki mənbələrə istinadən yazır ki, Ermənistanın Baş naziri Nikol Paşinyan son vaxtlar öncədən proqnozlaşdırılmayacaq hala gəlib və istər siyasi, istərsə də digər sahələrdə çox ağlasığmaz ,uyğunsuz qərarlar verir.

Qəzetin əldə etdiyi məlumata əsasən yazdığına görə, Paşinyan səfərlərinin gündəliyini belə gizli saxlamağa başlayıb. Bəzən hətta təhlükəsizlik işçiləri belə ölkənin baş nazirinin, - istərsə şəxsi görüş, istərsə də regional ziyarət olsun, hara getdiyindən son anda xəbər tuturlar. Bunun nəticəsidir ki, belə hallarda nəinki təhlükəsizlik işçiləri, həm də protokolun məsul şəxsləri gərgin vəziyyətdə olurlar. Üstəlik, bəzən son anda planlaşdırılan ziyarətin cədvəlində də dəyişiklik edildiyinə dair sübutlar da var. Nəşrin məlumatına görə, xüsusilə, bu hal Jermuka son səfər zamanı baş verib.

## Mətyu Brayzə: "ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün geniş imkanları var"



Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün ABŞ-ın imkanları genişdir və ABŞ Prezidenti riskli görünən siyasi addımlar atmaq üçün münaqişə tərəflərinə yardım edə bilər. Bu sözləri AZƏRTAC-a açıqlamasında Atlantik Şuranın siyasi şərhçisi, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, ATƏT-in Minsk qrupunun sabiq həmsədri Mətyu Brayzə söyləyib.

M.Brayzə deyib: "Keçmiş həmsədr kimi, deyə bilərəm ki, ABŞ münaqişənin nizamlanması istiqamətində böyük imkanlara malikdir. ABŞ Prezidenti tərəfindən münaqişənin həlli üçün bir qədər maraq da var və bu işdə yardım edə bilər".

# Milli Məclisin sədri Almaniyaya səfər edib





**Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov Almaniyanın paytaxtı Berlinə səfər edib. Oqtay Əsədov sentyabrın 9-da Almaniya Bundesratının birinci vitse-prezidenti, Berlin şəhərinin meri Mixael Müller, Almaniya Bundestaqının prezidenti Volfqanq Şoyble, Bundestaqın Almaniya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri Yohannes Kars və qrupun digər üzvləri ilə görüşlər keçirib.**

Görüşlərdə Azərbaycanın xarici siyasəti, Almaniya və Avropa İttifaqı ilə münasibətləri, regional məsələlər, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, eləcə də parlamentlərarası əməkdaşlığa dair geniş fikir mübadiləsi aparılıb. İki ölkə arasında siyasi, iqtisadi, elmi, mədəni və digər sahələrdə münasibətlərin dinamik inkişaf etməsi, Azərbaycan və Almaniya arasında baş tutan yüksək səviyyəli səfərlər, hər iki ölkənin parlamentində fəaliyyət göstərən aidiyyəti dostluq qruplarının ikitərəfli münasibətlərə verdiyi töhfələr, Milli Məclis və Bundestaq deputatları arasında beynəlxalq təşkilatlar səviyyəsində mövcud olan konstruktiv əməkdaşlıq xüsusilə vurğulanıb.



Milli Məclisin sədri Azərbaycanın Avropa, o cümlədən Almaniyanın enerji təhlükəsizliyinə töhfələri, regionda həyata keçirdiyi nəhəng enerji və nəqliyyat layihələri, o cümlədən Cənub Qaz Dəhlizinin icrası, Şimal-Cənub və Qərb-Şərq nəqliyyat dəhlizlərinin inkişafına xidmət edən layihələr, ölkəmizin çətin geosiyasi regionda yerləşməsinə baxmayaraq, müstəqil və milli maraqlara söykənən siyasət yürütməsi, eləcə də Ermənistanın hərbi təcavüzünün nəticələri və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə məlumat verib. Oqtay Əsədov Almaniya Bundestaqının Azərbaycanın ərazi bütövlüyünə dəstək verən qətnamə qəbul etməsini məmnunluqla xatırlayaraq, Almaniyanı Minsk qrupunun üzvü kimi münaqişənin həllinə fəal töhfə verməyə çağırıb. O, Bundestaqın prezidenti Volfqanq Şoyble və Bundesratın birinci vitse-prezidenti Mixael Mülleri Azərbaycana səfərə dəvət edib.



Almaniya rəsmiləri Azərbaycanı Almaniyanın mühüm iqtisadi tərəfdaşı adlandırıblar və ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın dərinləşməsindən məmnunluq ifadə ediblər. Azərbaycanın regionda sabitləşdirici faktor olması, Avropa ölkələri ilə sıx əməkdaşlıq münasibətlərinin qurulmasına yönələn xarici siyasət yürütməsi, xüsusilə Almaniya ilə münasibətlərin dərinləşməsinə mühüm önəm verməsi, Almaniyanın müxtəlif bölgələri ilə əlaqələrin qurulmasına və cəmiyyətin müxtəlif sahələrində birbaşa təmasların və tərəfdaşlıqların meydana gəlməsinə maraq göstərməsi, ölkəmizdə alman irsinin dövlət səviyyəsində qorunması və alman dilinin tədrisinin geniş vüsət alması Almaniya tərəfdən məmnunluqla qarşılanıb. Alman parlamentariləri eləcə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə dəstək verməyə hazır olduqlarını qeyd ediblər.

Bundesratda keçirilmiş görüşdə, həmçinin Bakı və Berlin şəhərləri arasında əməkdaşlıq imkanları müzakirə edilib, paytaxt şəhərləri arasında turizm, təhsil, vətəndaş cəmiyyəti əlaqələrinin möhkəmləndirilməsinə hər iki tərəfin marağı ifadə olunub. Mixael Müller Berlin şəhərinin meri bu istiqamətdə təşəbbüslərə dəstək verməyə hazır olduğunu bildirib.

Milli Məclisin sədri səfər çərçivəsində Bundestaqın plenar iclaslarının keçirildiyi tarixi Reyxstaq binası ilə də tanış olub. O, eləcə də Almaniya Azərbaycanlılarının Koordinasiya Şurasının əlaqələndiricisi Yaşar Musayevi qəbul edib.

Oqtay Əsədovu Milli Məclisin deputatları - Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı, Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Xanlar Fətiyev, Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev, eləcə də Milli Məclis Aparatının vəzifəli şəxslərindən ibarət böyük nümayəndə heyəti müşayiət edib. Görüşlərdə, həmçinin Azərbaycanın Almaniyada fövqəladə və səlahiyyətli səfiri Ramin Həsənov iştirak edib.

# "Təzəpir" məscidində ənənəvi qanvermə aksiyası keçirilib

*Allahşükür Paşazadə: "Sevindirici haldır ki, Azərbaycandan sonra qonşu ölkə olan İran və Türkiyədə də bu ənənə vüsət alıb"*




**Aşura günü ilə əlaqədar "Təzəpir" məscidində ənənəvi qanvermə aksiyası keçirilib. Aksiyada çoxsaylı vətəndaşlar iştirak edərək, bu nəcib əməldə öz töhfələrini verib, qanvermə aksiyasında fəallıq göstəriblər.**

Qeyd edək ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin deputatları, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri də qanvermə aksiyasına qoşulublar.



QMİ-nin sədri aksiyanın keçirilməsi ilə bağlı bildirib ki, illər keçməsinə baxmayaraq, hələ də Azərbaycanda Aşura günü ənənəsi yaşadılır. O, qeyd edib ki, sonrakı dövrlərdə bəzi təsirlər nəticəsində zəncirvurma, başyarma, qançıxarma halları olurdu və bəyənilmirdi: "Buna görə də, qərara gəlindi ki, qanvermə aksiyası olsun. Öz qanımızı verməklə, xəstə insanlara kömək edirik. Bu, şəriətin və dinin istəyidir".



Şeyxülislam onu da bildirib ki, hazırda Azərbaycanın bir çox məscidlərində qanvermə aksiyası davam edir. "Sevindirici haldır ki, Azərbaycandan sonra qonşu ölkə olan İran və Türkiyədə də bu ənənə vüsət alıb. Hesab edirəm ki, bu, savablı işdir. Vətən uğrunda şəhid olan bütün şəhidlərimizə də başsağlığı verirəm" deyə Allahşükür Paşazadə sonda vurğulayıb.

Qeyd edək ki, irsi qan xəstəliklərindən əziyyət çəkənlərə Aşura günü ilə əlaqədar Səhiyyə Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən yardım məqsədilə könüllü qanvermə aksiyaları keçirilir.

***Rövşən NURƏDDİNOĞLU***

# Vladimir Putin Qriqori Karasini vəzifəsindən azad edib

Rusiya Prezidenti Vladimir Putin Qriqori Karasini stats-katib - Xarici İşlər nazirinin müavini vəzifəsindən azad edib. Bu barədə Fərman sentyabrın 10-da dərc olunub. Rusiya dövlətinin başçısı digər Fərmanı ilə Yevgeni İvanovu bu vəzifəyə təyin edib.

Q.Karasin stats-katib - xarici işlər nazirinin müavini vəzifəsində 2005-ci ildən çalışırdı. O, MDB dövlətləri ilə ikitərəfli münasibətlər sahəsinə kuratorluq edirdi.

Yevgeni İvanov Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib. 1995-ci ildən Rusiya Xarici İşlər Nazirliyində müxtəlif vəzifələrdə, o cümlədən nazirin katibliyinin rəhbəri və konsulluq departamentinin direktoru işləyib. 2017-ci ildən Xarici İşlər nazirinin müavinidir.

# Tramp Boltonu istefaya göndərdi

ABŞ prezidenti Donald Tramp təhlükəsizlik üzrə müşaviri Con Boltonu işindən azad edib. Trend-in məlumatına görə, bu barədə D.Tramp özü deyib. C.Bolton ötən ilin aprelindən müşavir vəzifəsində çalışır.



# Turizm sahəsində ölkələrarası əməkdaşlıq genişlənir

***Avropa ilə Asiya arasında yerləşən və qədim adət-ənənələri özündə birləşdirən Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, bütün sahələrə olduğu kimi, turizmin inkişafına da xüsusi diqqət ayrılıb. Ötən əsrin 90-cı illərinin sonunda turizmin inkişafı ölkənin ali qanunvericilik aktlarında əksini tapıb ki, bu da tarixən neft ölkəsi kimi tanınan Azərbaycanda turizm sektorunda müsbət dəyişikliklərlə müşahidə olunub.***

Ölkəmizdə tərəqqi və modernləşmənin vəhdət təşkil etdiyi zamanda turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturun yaradılması sahəsində məqsədyönlü işlər görülüb. Son illər ərzində ölkmiz turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bu sahənin müasir standartlara uyğun olaraq inkişafına təkan olmuşdur.

Bu gün Azərbaycana dünyanın müxtəlif ökələrindən olan nümayəndələr turist kimi səfər edirlər. Ölkə başçısının Azərbaycanda turizm sahəsinə ayrdığı diqqət Azərbaycanın beynəlxalq arenada öz turizm potensialını nümayiş etdirməyə şərait yaradır. Azərbaycana gələn turistlərin axını artır. Təkcə bu ilin iyul ayı ərizində Azərbaycana 365 min əcnəbi qonaq səfər edib ki, bu da, 2018-ci ilin iyul ayına nisbətdə 10,6 faiz artım deməkdir. Qonaqların üçdə-birindən çoxunu, yəni 35 faizini Rusiyadan gələnlər təşkil edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 11 min və ya 10 faiz çox qonaq deməkdir. İyul ayı üzrə ən böyük artım Gürcüstandan gələnlər arasında müşahidə olunub. Belə ki, ötən ilin eyni ayı ilə müqayisədə qonşu ölkədən Azərbaycana 12 min və ya 26 faiz daha çox xarici vətəndaş gəlib. Bununla da, iyul ayında Gürcüstandan gələnlərin sayı 61 min nəfər təşkil edib. Səudiyyə Ərəbistanından səyahət edənlərin sayı 25 faiz artaraq, rekord həddə - 29 minə çatıb. Cari ilin yanvar-iyul aylarında Azərbaycanı 1,8 milyon xarici səyahətçi ziyarət edib ki, bu da, 2018-ci ilin eyni dövrü ilə müqayisədə 122 min və ya 7,4 faiz çoxdur. Mərkəzi və Cənubi Asiyadan gələn səyahətçilərdə də müvafiq olaraq, 39 faiz və 44 faiz artım qeydə alınıb. Ən yaxşı turistik bazarlar sayılan Rusiya və Türkiyədən gələnlərin sayı 4 faiz artıb. Təbii ki, bu artım dövlət turizm siyasətinin, eləcə də, ölkədə olan potesialın zəruriətinin nəzərə alınması, turizm ehtiyatlarından səmərəli istifadə olunmaqla, zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin və eləcə də, xalqımızın qədim mədəni-tarixi irsinin geniş miqyasda tanıdılmasını təmin etmək məqsədi ilə görülən işlərin nəticəsidir. Turist axını çox olan rayonlarda turist düşərgələrinin təşkil edilməsi, turizm sahəsində fəaliyyət göstərən orta və kiçik sahibkarlara dəstək məqsədi ilə təyinatlı və güzəştli kreditlərin ayrılması bu sahədə nailiyyətlərin artması ilə nəticələnib. Qonşu ölkələrin nümayəndələrinin iştirakı ilə "Sərhədyanı turizmin inkişaf perspektivləri" mövzusunda beynəlxalq konfransın keçirilməsi, Azərbaycanın diplomatik nümayəndəlikləri və diasporları tərəfindən Azərbaycanın turizm potensialının xarici ölkələrdə tanıtımı məqsədi ilə təbliğat-təşviqat işinin gücləndirilməsi və s. Azərbaycanda turizm sektorunu gücləndirib.











Turizm sahəsində əməkdaşıq haqqında Hökumətlərarası Sazişlər də turizmin inkişafına təsirini göstərməkdədir. Belə ki, son illər ərizində Azərbaycanla Moldova, Belarus, Qətər, Yunanıstan, Qazaxıstan, İordaniya, Fransa, Tacikistan, Misir, Litva Respublikası və bu kimi ölkələr arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişlər bağlanmışdır. İmzalanmış Sazişlərin müddəalarının həyata keçirilməsi ilə əlaqədar, mütəmadi olaraq, tədbirlər görülür və digər ölkələr ilə turizm sahəsində ikitərəfli əlaqələrin qurulması istiqamətində müvafiq işlər aparır. Çoxtərəfli əməkdaşlıq münasibətlərinin qurulması və inkişaf etdirilməsinin turizm siyasətinin prioritet istiqamətlərindən biri olduğunu nəzərə alaraq, Azərbaycan beynəlxalq təşkilatlarla əlaqələrini möhkəmləndirir. Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyinin Turizm Şurası, Demokratiya və İqtisadi inkişaf naminə - GUAM təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı s. beynəlxalq təşkilatlarla qurulan əlaqələri də qeyd etməliyik.

Azərbaycan islam dünyası ilə turizm sahələrində çoxtərəfli əməkdaşlıq münasibətləri yüksək səviyyədə inkişaf etdirir. Bu əməkdaşlıq həm İslam Konfransı Təşkilatı, həm də onun ixtisaslaşmış institutları olan İSESKO, İRCİCA, SESRTCİC, İslam Texnologiyalar Universiteti və s. təşkilatlar çərçivəsində həyata keçirilir.

Respublikamızın turizm imkanlarını təbliğ etmək məqsədi ilə bir sıra tədbirlər, davamlı olaraq, həyata keçirilir. Son illərdə ölkəmizin turizm imkanlarını əks etdirən reklam-çap məhsulları hazırlanıb. "Turistlər üçün məlumat" kitabçası, "Azərbaycan" açıqça dəsti, "Azərbaycanın otelləri", "Azərbaycanın tarixi və arxitektura abidələri", "Bakının teatr və muzeyləri" bukletləri, "Azərbaycan" və "Bakı" fotoalbomları, "İpək Yolu", "Xalçaçılıq" kitabçaları, Azərbaycanın, Şuşanın və Qarabağın turist xəritələri, "Azərbaycana xoş gəlmisiniz" CD diski və DVD formatda 10-20 dəqiqəlik filmlər və s. Azərbaycanın turizm imkanlarını nümayiş etdirən nümunələrdir. Qeyd olunan nəşrlər, CD və DVD-lər Azərbaycan, ingilis, alman, ərəb, yapon, və rus dillərində hazırlanıb. Azərbaycanın beynəlxalq sərgilərdə iştirakının coğrafiyası genişlənib. London, Nyu-York, Moskva, Berlin, Pekin, Milan, Madrid, Dehli, Vyana, Mumbay, İstanbul, Tokio, Əl-Küveyt, Dubay, Kiyev, Tbilisi, Bəhreyn, Daşkənd, Mahaçqala şəhərlərində keçirilən beynəlxalq turizm sərgilərində Azərbaycan öz daxili potensialını nümayiş etdirir.

Artıq turistləri ölkəmizə cəlb olunması məqsədi ilə ölkəmizə səfər edən şəxslərin sayının artırılması üçün onlara göstərilən xidmətini keyfiyyətini yaxşılaşdırılmasıla yanaşı, viza rejimi də sadələşdirilib. Ölkəmizin turizm potensialının təqdimi ilə bağlı dünya ölkələrində keçirilən tədbirlər davamlı xarakter daşıyır. Belə ki, bu günlərdə - 27-29 avqust tarixində Azərbaycan Turizm Bürosu Rusiya Federasiyasının Yekaterinburq, Moskva və Kazan şəhərlərində silsilə təqdimatlar keçirəcək.

Tədbirdə, 3-ü hotel olmaqla, Azərbaycandan 10, Rusiyadan 100-ə yaxın turizm şirkəti iştirak edəcək. Müxtəlif turizm istiqamətləri üzrə ixtisaslaşmış təşkilatlar arasında B2B (Biznesdən-biznesə) xarakterli görüşlər baş tutacaq. Görüşlər zamanı əməkdaşlıq imkanları müzakirə olunacaq və gələcək tərəfdaşlıq üçün qarşılıqlı fikir mübadiləsi aparılacaq.

Eləcə də, Azərbaycanın turizm potensialı Hindistanın 3 böyük şəhərində təbliğ olunacaq. Cari ilin 9-13 sentyabrda Azərbaycan Turizm Bürosu tərəfindən Hindistanın Dehli, Benqaluru və Mumbay şəhərlərində silsilə təqdimatlar təşkil ediləcək. "Azerbaijan-India Roadshow on Travel Trade" adlı tədbirdə Azərbaycandan 16, Hindistandan 100-ə yaxın turizm şirkəti iştirak edəcək. Turizmin müxtəlif istiqamətləri üzrə ixtisaslaşmış təşkilatlar arasında B2B (Biznesdən-biznesə) xarakterli görüşlər baş tutacaq və gələcək tərəfdaşlıq üçün ikitərəfli müzakirələr aparılacaq. Təqdimatlar çərçivəsində Hindistan turizm şirkətlərini Azərbaycanın turizm potensialı barədə ətraflı məlumatlandırmaq və maraq doğuran sualları cavablandırmaq məqsədilə mətbuat konfransı təşkil olunacaq. Bütün bunlar ölkəmizdə turizm sənayesinin inkişafında özünəməxsus rola malikdir və Azərbaycana turist axınını daha da gücləndirəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Pompeonun gizli danışıqları: ABŞ Avropada niyə fəallaşır?

***Amerikanın dövlət katibi Mayk Pompeonun Brüsselə səfərinə ekspertlər böyük maraq göstərdilər. Səfər sentyabrın 2-3-də baş tutub. Maraqlıdır ki, təxminən eyni vaxtda Amerika Şərqi Avropada, Rusiya isə Cənubi Qafqazda daha böyük fəallıq nümayiş etdiriblər. Hər bir halda M.Pompeonun danışıqları gizli aparması və mətbuata informasiyaların verilməməsi səfərə xüsusi məzmun verib. Ekspertlər Amerika ilə Avropa İttifaqının hansı məsələlər üzrə və hansı məzmunda müzakirələr apardığına ciddi maraq göstəriblər. Bu kontekstdə amerikalı rəsminin Brüssel səfərinin geosiyasi tərəfləri üzərində geniş dayanmağa ehtiyac görürük.***




## Cavabsız suallar: Vaşinqtonun Brüsseldən istədikləri

Son bir neçə ildə ekspertlər ABŞ-Aİ münasibətlərindən daha çox neqativ aspektdə bəhs edirlər. Səbəb isə Donald Trampın "ilk öncə Amerika" tezisi fonunda Avropa ilə münasibətlərə yeni çalarlar gətirmək istəyi ilə bağlıdır. O cümlədən Avratlantika məkanının siyasi-iqtisadi paçalanma ehtimalının çox olmasından danışılır. Bunlar faktsız deyilən fikirlər deyil. D.Tramp təhlükəsizlik, ticarət, hərbi, iqtisadi və hətta iqlim məsələlərində Brüsselin maraqlarını gözləmir. O, daim Amerikaya qarşı haqsızlıq olduğunu deyir.

Bu sırada avropalı rəsmilər Vaşinqtonun ikiqat vergi siyasətini, İranla imzalanmış sazişdən çıxmanı, Çinə qarşı ticarət müharibəsində Avropa şirkətlərinin maraqlarının nəzərə alınmamasını yaxşı qarşılamırlar. Üstəlik, D.Tramp NATO çərçivəsində Avropa ölkələrini maliyyə cəhətdən ciddi sıxışdırmaqdadır. O, təşkilata ödəmələrin artırılmasını tələb kimi qarşıya qoyub. Həmin kontekstdə digər məsələ Almaniya və Fransanın vahid Avropa ordusu yaratmaq təşəbbüsü ilə çıxış etməsi ilə bağlıdır. Bu aspektdə də ənənəvi müttəfiqlər arasında ciddi fikir ayrılığı qalmaqdadır.

D.Tramp xüsusilə Fransa prezidenti Emmanuel Makronla fərqli mövqedədir. İqlim və təhlükəsizlik məsələlərində D.Tramp E.Makronu qətiyyən qəbul etmək istəmir. Əlbəttə, burada "Breksit" prosesinin işə düşməsində ABŞ Prezidentinin aktiv rolunu da Brüssel nəzərə alır. D.Tramp açıqca Londonda "Breksit" tərəfdarı olan siyasi kəsimi dəstəkləyir və ona böyük vədlər verir. Bunlara iqtisadi əlaqələr və nəhəng sazişlərin imzalanması daxildir.

Bütün bu deyilənlər onu göstərir ki, Amerika müstəqil, geosiyasi mühitdə əsas oyunçulardan biri olan Aİ-ni arzulamır. Bunun konkret siyasi əlaməti D.Trampın xarici siyasətinin ana tezislərindən birində açıq ifadə olunub. Amerika Aİ kimi təşkilatların deyil, müstəqil dövlətlərin güclü olmasına üstünlük verir. Məsələn, ABŞ-a güclü Aİ deyil, güclü Almaniya və ya güclü Böyük Britaniya sərf edir. Səbəbi aydındır, çünki Avropada elə bir dövlət yoxdur ki, Amerika ilə bəhsə girə bilsin. ABŞ bütün əsas parametrlər üzrə onların hamısından qat-qat güclüdür. Ancaq Aİ inkişaf etsə, onun Amerikaya rəqib olmaq şansı az deyil. Bu isə Vaşinqtonu qane etmir, baxmayaraq ki, söhbət çox yaxın müttəfiqlərdən gedir.

ABŞ-Aİ münasibətlərinin məzmunu baxımından məsələnin başqa tərəfi Vaşinqtonla Brüsselin Çin, İran və Rusiya ilə bağlı tutduqları mövqe ilə bağlıdır. ABŞ İranla nüvə sazişindən çıxıb, ancaq Avropa bu məsələdə onu dəstəkləmir. Hətta Avropa şirkətləri İranla əməkdaşlığa davam etmək arzularını tez-tez dilə gətirirlər. Rəsmi olaraq Almaniya və Fransa İran məsələsində ehtiyatlı və konstruktiv mövqe tutmağa üstünlük verirlər.

Çinlə bağlı da vəziyyət Amerikanın xeyrinə deyil. Avropanın böyük dövlətləri Pekinlə əməkdaşlığı davam etdirirlər. Hətta Çinin təsis etdiyi böyük bir banka Böyük Britaniya, Almaniya və Fransa da qoşulub. Avropalıların Çinlə ticari əlaqələri yaxşı səviyyədədir. Rusiyaya münasibətdə tərəflər arasında çox məsələlərdə uyğunluq varsa da, bəzi incəliklər üzrə fikir ayrılığı qalır. Bütövlükdə götürdükdə, ABŞ-la Aİ-nin münasibətlərində problemlər az deyil.

Və təbii ki, bütün bunların fonunda ABŞ-ın dövlət katibinin Brüsselə səfəri ekspertlərin marağına səbəb olmalı idi. Üstəlik, M.Pompeonun keçirdiyi görüşlərdə aparılan müzakirələr barədə çox az məlumatın verilməsi marağı gücləndirib. Ümumi səviyyədə müzakirə olunan mövzular haqqında informasiyalar yayılıb. O cümlədən amerikalı rəsminin kimlərlə görüşdüyü qeyd olunur. M.Pompeo Avropa Komissiyasının yeni prezidenti Ursula fon der Lyayen, xarici siyasət və təhlükəsizlik məsələləri üzrə yeni ali nümayəndə Jozep Borrel, Aİ Şurasının yeni seçilmiş prezidenti Şarl Mişel, Avropa Parlamentinin fəaliyyətdə olan sədri David Sassoli ilə görüşüb. Ekspertlər diqqət yetirirlər ki, M.Pompeo Aİ-nin hazırkı rəhbərlərinin heç də hamısı ilə görüşməyib. Yeni vəzifəyə gələnlərin səlahiyyətləri noyabrın 1-dən başlayır.

## Gözlənilən nəticə: qeyri-müəyyənlik qalır

Buradan nəticə çıxarılır ki, Vaşinqtonu Avropa İttifaqı ilə münasibətlərin gələcəyi maraqlandırır. Özü də Amerika rəhbərliyi ümid edir ki, təşkilatın yeni rəhbərliyi əvvəlkindən fərqli mövqe tutacaq. Hər halda Vaşinqton buna ümidlidir. Onu Avropa istiqamətində aktivləşdirən səbəblər isə kifayət qədərdir. Yuxarıda vurğulanan məqamlarla bərabər bütövlükdə Qərbin xarici siyasətində özünü göstərən müəyyən ayrılmalara son qoyulmalıdır. Bunu yalnız Avratlantika məkanının gələcəyi üçün deyil, həm də hazırkı güclü geosiyasi rəqiblərə Qərbi siyasi, geosiyasi, təhlükəsizlik, iqtisadi, ticari və digər sahələr üzrə parçalamaq şansı verməməklə əlaqələndirirlər.

Konkret olaraq, Rusiya və Çin Amerika ilə Avropa arasında müxtəlif qlobal məsələlərə yanaşmada fikir ayrılığı yaratmağa cəhd göstərirlər. Bu kontekstdə Moskva və Pekinin apardığı kibermüharibə xüsusi təhlükə törədir. İndi Tramp ümid edir ki, Aİ-nin yeni rəhbərliyi bu kimi təhlükələri dərindən dərk edib Vaşinqtonla birgə hərəkət edəcək. Müzakirə edilən mövzulara baxdıqda isə, bu məqamı daha aydın təsəvvür etmək olur.

M.Pompeonun Aİ Şurasının yeni prezidenti ilə real təhlükələrdən birgə müdafiənin təşkili, zərərli xarici aktivliyə qarşı mübarizədə yeni strategiya və antiterror məsələlərini müzakirə etdiyi haqqında məlumatlar yayılır. Bunların hər birinin arxasında geniş fəaliyyət tələb edən məsələlər dayanır. Müdafiə məsələsində Aİ-nin özünün müstəqil ordusunu yaradıb-yaratmaması aktualdır. Vaşinqton buna qarşıdır, Parislə Berlin isə avropalıların öz ordusunun yaradılmasında israr edirlər. "Xarici təhlükələr" ifadəsi altında isə başlıca olaraq Rusiya və Çinin informasiya savaşı nəzərdə tutulur. Hərçənd, buraya beynəlxalq terror təşkilatlarının fəaliyyəti də daxildir.

Burada Çinin Avropada iqtisadi-maliyyə fəaliyyətini genişləndirməsi də nəzərdə tutulur. Amerika bir neçə dəfə avropalıları xəbərdar edib ki, Pekinin sərmayələri ilə ehtiyatlı olsunlar. Lakin, deyəsən, Çinin müdaxiləsinə qarşı duruş gətirmək mümkün olmur. Son olaraq, Ukraynada Çin şirkətinin fəaliyyəti ilə əlaqədar Vaşinqton Kiyevdə müzakirələr aparıb.

Terrorla mübarizə məsələsinin də xeyli incəlikləri vardır. Burada, təbii ki, Yaxın Şərq və ayrıca İran məsələsi Amerika üçün aktuallıq kəsb edir. Xüsusilə İranın bir sıra güc strukturlarının terror təşkilatı kimi tanınması vəziyyəti xeyli mürəkkəbləşdirib. Amerika avropalılardan da oxşar addımın atılmasını və hər yerdə İrana qarşı mübarizə aparmasını tələb edir.

Bununla yanaşı, Vaşinqtonun Əfqanıstanda "əl-Qaidə" ilə danışıqları yekunlaşdırmaq üzrə olduğu haqqında məlumatlar var. Gözlənilir ki, Vaşinqton Əfqanıstandan hərbi qüvvələrinin bir hissəsini çıxarsın. Boşalan yerləri kimlərin dolduracağı və Avropanın oradakı rolu məsələsi də Amerika üçün maraqlıdır.

Yayılan informasiyalara görə, bütün bunlar Aİ-nin yeni rəhbərliyi ilə ciddi şəkildə müzakirə edilib. Hətta yeni rəhbərliyin D.Trampla görüşünün keçirilməsi də razılaşdırılıb. Ekspertlər bu məqamı Vaşinqtonun Aİ-yə münasibətini daha da ciddiləşdirməsi kimi qiymətləndirirlər. ABŞ nə olur-olsun, Avropanı əldən vermək istəmir. M.Pompeonun səfəri haqqında geniş məlumatın verilməməsi də vəziyyətin ciddiliyindən xəbər verir. Konkret olaraq, hansı nəticələrin alındığı haqqında informasiya yoxdur. Lakin görüşlərdən sonra verilən qısa bəyanatlar göstərir ki, tərəflər ortaq mövqe tapacaqlarına inanırlar. Onlar "çox gözəl görüşlər oldu" kimi fikirlər ifadə edirlər. Tərəflər razılığa gəliblər ki, "qlobal problemlərin geniş dairəsi ilə bağlı birgə fəaliyyət göstərsinlər".

Beləliklə, ABŞ dövlət katibinin Avropa turnesinin çox vacib məsələlərlə bağlı olduğu haqqında nəticə çıxara bilərik. Bütövlükdə Qərb qlobal geosiyasi proseslərdə təşəbbüsü əldən verməməyə çalışır. İndiki halda bunun nə dərəcədə mümkün olub-olmayacağını isə zaman göstərəcək.

**Newtimes.az**

## Hikmət Babaoğlu: “Kimisə siyasi keçmişinə və sosial statusuna görə fərqləndirmək və hədəf göstərmək doğru deyil”



*“Hansısa əlamətlərə görə, cəmiyyətdə insanları fərqləndirmək doğru deyil, zərərlidir. Çünki cəmiyyət o zaman güclü olur ki, orda insanlar müxtəlif əlamətlərinə görə ayrılmır, tam əksinə, ortaq dəyərlər tapılaraq, onun ətrafında birləşdirilir. Xüsusən, siyasi müstəvidə bunu etmək, nəticəsi proqnozlaşdırıla bilməyən hadisələrə gətirib çıxara bilər ki, bu da, yolverilməzdir”.*

Bunu Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu bəzi millət vəkillərinin son günlər müzakirə olunan açıqlamalarına münasibət bildirərkən deyib. Millət vəkili Hikmət Babaoğlu qeyd edib ki, Azərbaycanın müstəqillik tarixinin ilk illərində müxtəlif əlamətlərinə görə insanların fərqləndirildiyinin və nəticə etibarı ilə də Azərbaycan cəmiyyətinin, Azərbaycan siyasi sisteminin birliyinin, vahidliyinin pozulmasının şahidi olmuşuq. Hazırkı mərhələdə Azərbaycanı güclü edən məhz onun birliyidir: “Ona görə də, düşünürəm ki, eyni siyasi komandada təmsil olunan, sonradan bu və ya digər səbəblərdən vəzifədən getmiş insanlar haqda, yaxud vaxtilə Azərbaycan cəmiyyətində müxtəlif fərqli siyasi dəyərləri mənimsəmiş, sonra isə ümumi konsolidasiya nəticəsində, milli birlik və milli maraqlar ətrafında birləşmiş keçmiş siyasi partiya üzvlərini, onun rəhbərliyini nədəsə ittiham etmək, əvvəlki mövqeyinə görə, onlara qarşı ayrı-seçkilik mövqeyində durmaq, tamamilə yersizdir, doğru deyil. Çünki siyasi sistemin də gücü, milli gücün də ifadəsi, məhz konstruktiv konsolidasiya nəticəsində mümkün olur ki, hazırda Azərbaycan belə bir yüksək həmrəylik mərhələsinə gəlib çata bilibdir. Bunu pozmağa yönəlmiş hər bir addım, deyilən hər bir fikir ümumi milli maraqlarımız kontekstində düzgün qəbul edilə bilməz və doğru deyil. Bu günlərdə bəzi millət vəkillərinin adından səsləndirilən fikirlər də, məhz bu kontekstdə dəyərləndiriləndə, doğru hesab edilə bilməz. Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov da bu məsələ ilə bağlı, haqlı olaraq, öz mövqeyini bildirdi və bunun yolverilməz olduğunu dilə gətirdi. O bildirdi ki, hər bir insan bu gün hər hansı bir siyasi komandada vəzifədə təmsil oluna bilər, sabah həmin siyasi komandanın sıravi üzvü ola bilər. Onun vəzifəsinin dəyişməsi əqidəsinin dəyişməsi, milli maraqlardan kənarda durması kimi səciyyələndirilə bilməz. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov da bu məsələlərə toxunaraq, bu cür fikirlərin yanlış olduğunu dilə gətirdi. Mən düşünürəm ki, hər iki mövqe tamamilə doğrudur. Kimisə siyasi keçmişinə və sosial statusuna görə fərqləndirmək və hədəf göstərmək doğru deyil”.

## “Vaxtilə vəzifədə olmuş şəxslər bu gün də çox ləyaqətlə dövlətçiliyimizi, iqtidarımızı, partiyamızı təmsil və müdafiə edirlər”



*“İlk növbədə qeyd etmək istərdim ki, mən Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun və Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədovun sosial şəbəkələrdəki şərhlərini, açıqlamalarını diqqətlə oxudum, tanış oldum və çox bəyəndim.*

Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin Komitə sədri Siyavuş Novruzovun fikirlərindən sonra mən də “Yeni Müsavat”a öz fikirlərimi bildirmişəm. Ancaq mənim fikirlərimdə bu o demək deyil ki, nə qədər keçmiş sabiq nazirlər və yaxud vəzifədə olmuş adamlar, məmurlar varsa bunların hamısı dönük çıxıb, cinayətkar olub və s. Mən qətiyyən bu cür fikirdə deyiləm”. Bunu SİA-ya açıqlamasında millət vəkili Elman Məmmədov deyib

Millət vəkili bildirib ki, əgər kimsə müəyyən bir cinayət əməlləri ilə məşğul olubsa, onun haqqında müvafiq qurumlar araşdırmalar aparıblar, istintaq olub və onlar lazımi cəzalarına çatıblar: “Ancaq bunları hamıya aid etmək olmaz. Bu insan iqtidarın dövründə işləyib və yeqinki səhhətinə, yaşına və yaxud da işdə buraxdığı müəyyən nöqsanlara görə işindən azad olunubdur. Lakin bu o demək deyil ki, həmin insan işdən azad olunubsa o iqtidarın düşmənidir və yaxud da dönük çıxıb və s. Belə fikirləri səsləndirmək hesab edirəm ki, düzgün deyil və bu cəmiyyətdə anlaşılmazlığa, müəyyən qeyri stabilliyə gətirib çıxara bilər. Düşünürəm ki, bu insanlar arasında çox dəyərli, ləyaqətli adamlar var ki, onlar bu gün də iqtidar komandasında, YAP-ın idarəetmə orqanlarında, İdarə Heyətində, Siyasi Şurasında təmsil olunurlar. Onlar çox ləyaqətlə və yüksək səviyyədə dövlətimizi, dövlətçiliyimizi, iqtidarımızı, partiyamızı təmsil edirlər və müdafiə edirlər. Fikirləşirəm və düşünürəm ki, bu məsələdə çox hörmətli Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun və Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədovun açıqlamaları, mövqeləri çox diqqətəlayiqdir və dəyərlidir. Mən onların fikirləri ilə tamamilə razıyam”.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyasının bəzi deputatları keçmiş nazirlərin ünvanına sərt ittihamlar səsləndirib, onları vaxtilə dövlətin milyardlarını talamaqda, hazırda isə mövqesizlik nümayiş etdirməkdə, lazımi məqamda “qeybə” çəkilməkdə və xaricdəki mühacirləri maliyyələşdirməkdə günahlandırıb.

**Ceyhun Rasimoğlu**

## Strasburqda Azərbaycan icması ilə görüş keçirilib



Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Fransaya səfəri çərçivəsində Strasburq şəhərində Azərbaycan icması ilə görüş keçirilib. Bu barədə Dövlət Komitəsinin mətbuat xidmətindən məlumat verilib. Komitə sədri Fuad Muradov Azərbaycan dövlətinin diaspor siyasəti, bu siyasətin həyata keçirilməsində xaricdə yaşayan azərbaycanlıların rolu, onların şəbəkələşməsinin əhəmiyyəti və Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında fəal iştirak etmələrinin vacibliyindən danışıb. Komitənin son bir ildə gördüyü işlərin əks olunduğu videoçarx təqdim olunub, Azərbaycan icmalarının, diaspor təşkilatlarının və ayrı-ayrı şəxslərin Azərbaycan Diasporuna Dəstək Fonduna müraciət formaları barədə geniş izahat verilib.

Toplantıda bu gün dünyanın müxtəlif yerlərində, o cümlədən Fransadakı Koordinasiya Şuralarının fəaliyyətin mərkəzləşdirilməsindəki rolu, qarşıya çıxan çətinliklər barədə danışılıb, “Soydaşlar haqqında qanun”un qəbulu ilə bağlı dövlət orqanlarına müraciət olunduğu bildirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri soydaşlarımızın təkliflərini dinləyib, icmaların daha səmərəli işləmələri üçün geniş imkanlar yaradılması, xüsusilə azərbaycanlıların daha çox məskunlaşdığı yerlərdə yeni məktəblərin açılması ilə bağlı mövcud imkanlar müzakirə olunub. Görüşdə Azərbaycanın Fransadakı səfirliyinin nümayəndələri də iştirak ediblər.

## Azərbaycan nümayəndə heyəti Çində Avrasiya İqtisadi Forumunda iştirak edir



Sentyabrın 10-da Çinin Şansi vilayətinin inzibati mərkəzi olan Sian şəhərində Avrasiya İqtisadi Forumu işə başlayıb. AZƏRTAC xəbər verir ki, 58 ölkədən dövlət və hökumət rəsmilərinin, beynəlxalq və regional təşkilatların rəhbərlərinin iştirak etdikləri tədbirdə Azərbaycanı Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir.

Tarixi İpək yolunun başladığı Sian şəhərində iki ildən bir keçirilən forumun məqsədi “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində ölkələr, onların ayrı-ayrı şəhərləri və regionları, beynəlxalq təşkilatlar, iri şirkətlər arasında birgə əməkdaşlığı təşviq etmək, bununla bağlı məsələlərin müzakirəsi üçün dialoq və qarşılıqlı əməkdaşlıq platformasını təmin etməkdir.

## “Azərbaycanda Ukrayna Ticarət Evi ilin sonunadək açılacaq”



Azərbaycanda Ukrayna Ticarət Evinin ilin sonunadək açılması planlaşdırılır. AZƏRTAC xəbər verir ki, bu fikirləri Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski mətbuat konfransında deyib. Səfir qeyd edib ki, bu, təkcə ticarət əlaqələrini genişləndirmək üçün inteqrasiya edilmiş platforma yox, həm də iş adamları arasında əlaqələr qurulmasına imkan yaradan məsləhətləşmə meydanıdır. Diplomat həyata keçirilən layihələrin ölkələrimiz arasında əlaqələrin daha da inkişafı baxımından əhəmiyyətini qeyd edib.

Vladislav Kanevski vurğulayıb ki, Ukrayna Cənub Qaz Dəhlizi layihəsində iştirakı faydalı hesab edir. O, Azərbaycanın beynəlxalq aləmdə, o cümlədən enerji sahəsində getdikcə daha güclü oyunçuya çevrildiyini söyləyib. Səfir regional əməkdaşlığın ikitərəfli münasibətlərin mühüm hissəsi olduğunu qeyd edib. Mədəni, humanitar sahədə əməkdaşlığın əhəmiyyətindən söz açan səfir Bakıda Ukraynanın Bazar Günü Məktəbini açmaq, Azərbaycanda Ukrayna Kinosu Günləri keçirmək niyyətində olduqlarını bildirib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Vladislav Kanevski Ukrayna və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb.

## Sadiq Hacılı: “Prezident təqaüdünə layiq görüldüyüm üçün həm sevinirəm, həm də çox həyəcanlıyam”



Ali məktəbə qəbul imtahanlarında 692 bal toplayaraq Bakı Dövlət Universitetinin (BDU) hüquqşünaslıq fakültəsinə qəbul oldum və göstərdiyim bu yüksək nəticəyə görə Prezident təqaüdünə layiq görüldüm. Ölkə rəhbərinin “2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında” 9 sentyabr tarixli Sərəncamı bizim ali təhsil almağımıza və biliyimizi daha da zənginləşdirməyimizə böyük stimuldur. Bu təqaüdün biz gənclərə verilməsi dövlətimizin gənclərə göstərdiyi qayğı və etimadın böyük göstəricisidir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində BDU-nun hüquqşünaslıq fakültəsinin I kurs tələbəsi, Prezident təqaüdünə layiq görülən Sadiq Hacılı söyləyib. O deyib: “Prezident təqaüdünə layiq görüldüyüm üçün həm sevinirəm, həm də çox həyəcanlıyam. Bunun üçün ölkə rəhbərinə minnətdarlığımı bildirirəm. Bu, illərlə çəkdiyim zəhmətin, çox çalışmağımın bəhrəsidir. Çalışacağam ki, bundan sonra da ali təhsilimi uğurla davam etdirim və gələcəkdə dövlətimizin, məzunu olduğum 82 nömrəli məktəbin adına layıq olum. Mənə zəhmət çəkən, təhsil verən bütün müəllimlərimə minnətdarlığımı bildirirəm”.

# Paşinyanın böyük qələtinin böyük bədəli...

## Və ya Ermənistanın "Dağlıq Qarabağa" iddiası onu gülünc vəziyyətə saldı

***Heç şübhəsiz, hər bir dövlətin aparıcı ideologiyası onun ərazi bütövlüyünə əsaslanır. Məhz bu baxımdan da, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin bir nömrəli problemidir. Eyni zamanda, sözsüz ki, hər bir ölkənin inkişafı və xalqın təhlükəsizliyi, o ölkənin prezidentinin həyata keçirdiyi uğurlu siyasətin nəticəsində həyata keçirilir. Bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevə böyük inam bəsləyir və dövlət başçısının həyata keçirdiyi siyasəti tam dəstəkləyir. Çünki Azərbaycan əhalisi Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsini öz firavan və təhlükəsiz həyatında görür və ona görə də əhali Prezidentə inanır və dövlət başçısının ətrafında sıx birləşib. Eyni zamanda, Azərbaycan dünyanın ən sabit və təhlükəsiz ölkələrindən biridir. Əlbəttə, bu sabitliyə və təhlükəsiz həyat şəraitinə Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində nail olunub. Xalq da bunu görür və doğru seçim edir.***

Ermənistan isə, bu reallığı hələ də anlamır. Bunun səbəbi isə, işğalçı ölkəyə rəhbərlik edənlərin hamısının diktatura rejimi ilə idarə etmələri, sarsaq bəyanatlar verməklə, təmas xəttində, Ermənistan-Azərbaycan sərhədində gərginlik yaratmalarıdır. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan Ordusu dəfələrlə onlara layiqli cavabını verir, verəcək, necə ki, 2016-cı ilin aprel döyüşlərində onları yerinə oturtdu, torpaqlarımızın bir hissəsini azad etdi, bu ilin may ayında Naxçıvan istiqamətində uğurlu əməliyyat nəticəsində, böyük ərazi nəzarətimizə keçdi".

Reallığı hələ də anlamayan Ermənistanın baş naziri Paşinyan populist çıxışları və savadsız siyasi baxışları ilə, elə zənn edir ki, bu yolla nəyəsə nail ola biləcək. Amma bu küçə təfəkkürlü işğalçı ölkənin baş naziri, bir daha anlamalıdır ki, Azərbaycan Prezidenti İlham Əliyev Qarabağla bağlı öz qətiyyətli mövqeyini bildirib və bu gün də bildirir.



### Paşinyanın növbəti "seçki şousu"

Paşinyanın sərsəm siyasətinin nəticəsidir ki, Azərbaycan Respublikasının işğal edilmiş Dağlıq Qarabağ bölgəsində 8 sentyabr tarixində "yerli özünüidarəetmə orqanlarına seçkilər" adı altında növbəti "seçki şousu" təşkil edilib.

Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyevin işğal edilmiş ərazilərimizdə keçirilmiş "yerli özünüidarəetmə orqanlarına seçkilər"lə bağlı bəyanatında bildirir ki, "reallıq hissini" itirmiş təcavüzkar Ermənistan və əlaltısı olan cinayətkar "Qarabağ xuntası"nın atdığı bu addım tam qanunsuzdur, heç bir hüquqi əsası yoxdur, demokratiya və seçki adına böyük bir təhqirdir. Qondarma xuntanın saxta "rəhbərləri" olan Bako Saakyan, Aşot Qulyan və onların ətrafındakı digər demokratiya "əzabkeşləri"nə bildiririk ki, onların demokratiya pərdəsi altında gizlənmək niyyətləri istehza doğurur və Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyi və etnik təmizləmənin həyata keçirildiyi bir şəraitdə bu "seçkilər", nəticəsi beynəlxalq ictimaiyyət tərəfindən tanınmayan və təcavüzkarı növbəti dəfə ifşa edən bir şoudur. Əslində, işğalçı Ermənistan və qanlı xunta belə "seçkilər" keçirməklə, beynəlxalq ictimaiyyəti deyil, yalnız özləri-özlərini aldatmaqla məşğul olur. Saxta "seçkilər", həmçinin, Ermənistan hakimiyyəti və qondarma rejim arasında ixtilafların mövcudluğunu bir daha açıq şəkildə büruzə verdi. Bundan isə, əziyyət çəkən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ilə bərabər, həm də elə erməni icmasıdır. Tam əminik ki, Dağlıq Qarabağda yaşayan ermənilər, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri bərpa olunduqdan sonra geriyə dönəcək azərbaycanlılarla birlikdə ölkəmizin konstitusiyası və bələdiyyələr haqqında qanunlarına uyğun olaraq, yerli özünüidarəetmə orqanlarına keçiriləcək qanuni seçkilərdə iştirak edəcək".

### Gürcüstan Dağlıq Qarabağda qondarma "yerli özünüidarəetmə orqanlarına seçkiləri" tanımır

Sözügedən məsələ ilə bağlı Gürcüstanın Xarici İşlər Nazirliyi bəyanat verərək, bildirir ki, Azərbaycanın suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünə dəstəyini, bir daha ifadə etməklə, Gürcüstan Xarici İşlər Nazirliyi 2019-cu il sentyabrın 8-də Dağlıq Qarabağda keçirilmiş qondarma "yerli özünüidarəetmə orqanlarına seçkiləri" və onun nəticələrini tanımır.

Bəyanata əsasən, Gürcüstan Xarici İşlər Nazirliyi münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, sülh yolu nizamlanmasını dəstəkləyir.




### Zəbt olunan Dağlıq Qarabağda separatçı rejimin keçirdiyi "seçki"ni dünya ictimaiyyəti qətiyyətlə pisləyir

Beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı dövlət olduğunu tam şəkildə sübuta yetirən, bu ölkə üzərində ciddi diplomatik qələbə qazanan Azərbaycanın sözügedən sahə üzrə fəaliyyətini daha da genişləndirməsi qarşı tərəfdə böyük narahatlığa və təşvişə yol açmaqdadır. Çünki Azərbaycanın uğurla həyata keçirdiyi hücumçu diplomatiya sayəsində Ermənistanın onsuz da yaxşı olmayan beynəlxalq imici daha bərbad vəziyyətə düşməkdə, onun işğalçı ölkə, terroru, soyqırımı tarix boyu siyasətinin əsas elementi olaraq istifadə etdiyindən, dünya daha dolğun faktlar və sübutlar əsasında xəbərdar olur. Məsələyə diplomatiya, beynəlxalq hüquq kontekstindən yanaşıldıqda, kifayət qədər aydın görünür ki, Ermənistan, sözün əsl mənasında, küncə sıxışdırılmış vəziyyətdədir və bu dövlətin Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünyanı aldatmağa xidmət edən yalançı manevrlərinə artıq yer qalmayıb.

İndi dünya, birmənalı tərzdə, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını qəbul edir, beynəlxalq hüquq normalarına uyğun olaraq, onu işğal altında saxladığı əraziləri azad etməyə çağırır. BMT, Avropa Şurası və digər nüfuzlu beynəlxalq təşkilatların qəbul etdikləri müvafiq qətnamələrdə, o cümlədən, münaqişənin dinc yolla çözülməsi üçün vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk Qrupunun irəli sürdüyü həll variantlarında Ermənistanın işğalçı dövlət kimi təqdim olunması bunun faktiki sübutudur. Lakin dünya birliyi, Ermənistanı işğalçı dövlət qismində qəbul etməsinə baxmayaraq, sözügedən ölkə hələ də Azərbaycan ərazilərindən öz silahlı qüvvələrini çıxarmağa tələsmir, burada yaratdığı separatçı rejimə hərtərəfli dəstəyini davam etdirir, hətta onun fəaliyyətinə hüquqi don geyindirməyə çalışır. Ermənilər zəbt olunmuş ərazilərdə bundan əvvəl də analoji "seçki" şouları təşkil etməklə, "seçki tamaşası"ndan başqa bir şey olmadığına sonda özləri də şahid olmuşdular. Bu dəfə də vəziyyət istisna təşkil etmir. Əksinə, analoji hallar Ermənistanın işğalçı siyasətinin ifşa edilməsinə təkan verən məqamlardan biri kimi çıxış edir. Bunu işğal edilmiş ərazilərdə keçirilən qanunsuz "seçki"nin dünya miqyasında növbəti dəfə sərt şəkildə tənqid obyektinə çevrilməsi də təsdiq edir.

Bu məsələyə Azərbaycan tərəfindən də kifayət qədər sərt reaksiya verilib. Xarici İşlər Nazirliyinin bəyanatında bildirilir ki, Azərbaycanın işğal olunmuş ərazilərindəki tanınmamış separatçı rejim azərbaycanlı əhalinin etnik təmizlənməsi əsasında Ermənistan tərəfindən təşkil olunmuş qanunsuz qurumdan başqa bir şey deyil: "Qondarma "seçkilər" Ermənistanın anneksiya siyasətini ört-basdır etmək məqsədilə keçirilir və Azərbaycanın ərazilərinin davam etməkdə olan işğalının nəticələrinin möhkəmləndirilməsinə yönəlmişdir.

Bu kimi "seçkilər"in keçirilməsi Azərbay-

# Paşinyanın böyük qələtinin böyük bədəli...

## Və ya Ermənistanın "Dağlıq Qarabağa" iddiası onu gülünc vəziyyətə saldı

can Respublikasının Konstitusiyasının müvafiq müddəalarını və beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozur, çünki sözügedən "seçkilər" Dağlıq Qarabağın əzəli azərbaycanlı əhalisi olmadan aparılır və beləliklə, heç bir hüquqi qüvvəyə malik deyildir.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində keçirilən hər hansı seçkilər yalnız o vaxt ədalətli və azad qiymətləndirilə bilər ki, oradan qovulmuş azərbaycanlı əhali həmin seçkilərin keçirilməsində, bütünlüklə, birbaşa və bərabər şəkildə bölgənin erməni əhalisi ilə bərabər qanuni və demokratik seçkilərdə iştirak etsinlər. Bu cür seçkilərin keçirilməsi yalnız erməni işğalçı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması, bölgədə həyatın normallaşdırılması, Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları arasında dialoq və əməkdaşlığın bərpası üçün zəruri şəraitin yaradılmasından sonra mümkün olacaqdır".

### Həmsədrlərdən Dağlıq Qarabağda keçirilmiş "seçkilər"ə münasibət

ATƏT-in Minsk Qrupunun həmsədrləri sentyabrın 8-də Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində "yerli seçkilər"in keçirilməsinə münasibət bildiriblər. ATƏT-in Kommunikasiya və Media Əlaqələri Departamentindən bildirilir ki, həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli həlli kontekstində Dağlıq Qarabağ əhalisinin öz gələcəyi barədə qərar qəbul etmək rolunu tanıyır: "Lakin Dağlıq Qarabağ nə ATƏT-in Minsk Qrupu ölkələri, nə də digər ölkələr tərəfindən müstəqil və suveren ölkə kimi tanınır. Bu "seçkilərin" nəticələrinə də Dağlıq Qarabağın hüquqi statusuna təsir edən amil kimi baxılmamalı, heç bir halda, bu nəticələr Dağlıq Qarabağın yekun statusuna və münaqişənin davamlı və sülh yolu ilə həlli istiqamətinə yönəlmiş hazırkı danışıqların nəticələrinə xələl gətirməməlidir. ATƏT-in Minsk Qrupu həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə davamlı həllində tərəflərə kömək etməyə qətiyyətli şəkildə, sadiq olaraq, qalır".

### Ukrayna səfiri: "Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır"

"Ukraynanın Dağlıq Qarabağla bağlı mövqeyi dəyişməz olaraq qalır. Ukrayna tərəfi rəsmi şəkildə dəfələrlə bəyan edib ki, bu məsələ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həll olunmalıdır".

Bunu Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski bu gün keçirdiyi mətbuat konfransında deyib: "Münaqişənin həll olunması üçün ölkə daha güclü və özünə əmin olmalıdır. Çünki dünyada güclülərə hörmət olunur. Biz Azərbaycanı çiçəklənən və stabil görmək istəyirik".

### ATƏT PA-nın prezidenti: "Paşinyanın bəyanatı danışıqlar prosesinə zərbə vurur"

"Avropa məkanında, Cənubi Qafqazda mövcud olan Dağlıq Qarabağ münaqişəsi bütün dünyanın, eləcə də, bizim təşkilatımızın - ATƏT-in diqqət mərkəzindədir". Bunu Gürcüstan bürosuna açıqlamasında ATƏT PA-nın Prezidenti Giorgi Tsereteli deyib.

Ermənistanın baş naziri Nikol Paşinyanın səsləndirdiyi bəyanata münasibət bildirən G.Tsereteli qeyd edib ki, bu bəyanat münaqişənin nizamlanmasına və danışıqlar prosesinin gedişinə zərbə vurur: "Düşünürəm ki, münaqişənin həllinə nail olmaq məqsədi daşımayan və ölkələr arasındakı müzakirələrə töhfə verməkdən uzaq olan bu cür bəyanatların səsləndirilməsi hər zaman sülh prosesini zədələyir. Biz daha çox konstruktiv bəyanatlar eşitmək istəyirik və konkret addımlar gözləyirik. Fikir ayrılıqlarını və fərqli düşüncələri bir araya gətirib ortaq dil tapmaq lazımdır. Ayrılıqlara səbəb olan və münaqişənin nizamlanması prosesinə zədə vuran bu cür bəyanatların səsləndirilməsi, təəssüf ki, bu istiqamətdə mövcud olan problemlər sırasındadır. Münaqişənin həlli güclü siyasi iradə tələb edir. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə yalnız beynəlxalq hüquq çərçivəsində nail olmaq mümkündür".



### Brayza: "Ermənistan baş nazirinin bəyanatları bir-birinə ziddir"

"Nikol Paşinyanın qəribə bəyanatlarından sonra Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin danışıqları davam etdirməsi olduqca vacibdir".

Bunu Gürcüstan bürosuna açıqlamasında Atlantik Şuranın analitiki, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, ATƏT-in Minsk Qrupunun sabiq həmsədri Metyu Brayza bildirib.

Onun sözlərinə görə, Ermənistan baş nazirinin bəyanatları bir-birinə ziddir: "Nikol Paşinyan, öncə, Ermənistan və Dağlıq Qarabağın vahid, daha sonra isə Dağlıq Qarabağın müstəqil olduğunu bəyan edib. Ermənistan hökumətinin yeni mövqeyi ilə məzmunlu danışıqlar aparmaq qeyri-mümkündür. Bu mövqe Azərbaycan üçün də tamamilə qəbuledilməzdir. Mediator olsaydım və Ermənistan yeni mövqeyində qalsaydı, buna aydın etiraz edib istefa verərdim. Belə ki, bu mövqe ilə irəliləyiş əldə etmək mümkün deyil. Bu, həmçinin, ədalətli deyil".

M.Brayzanın sözlərinə görə, Dağlıq Qarabağın yekun son hüquqi statusu danışıqlar yolu ilə razılaşdırılmalıdır: "Danışıqlar prosesində bir tərəf fayda əldə etmək üçün, nəyisə güzəştə getməlidir. Əgər hansısa tərəf istədiyi hər şeyi əldə etmək üçün güzəştə getməyəcəyini deyirsə, bu, sadəcə, doğru deyil".



### Paşinyanın şəxsi ambisiyaları və ya

### Ermənistan üçün yeni bir uçurumun başlanğıcı

Göründüyü kimi, bütün dünya Paşinyanın səviyyəsiz baş nazir olmaqla yanaşı, siyasi təfkürünün də aşağı səviyyədə olduğunu bildirir. Nəticədə isə, işğalçı ölkə divara dirənmiş olur.

Eyni zamanda, siyasi politoloqlar ötən ilin sonundan bu günə kimi, hakimiyyətə küçədən gələn baş nazir Nikol Paşınyanın mövcud problemlərin həllinə yox, rəqibləri ilə daxili çəkişmələr və ədavətə vaxt sərf etməsini siyasi səhv adlandırırlar. Çünki Paşinyanın ambisiyaları, hələ ki, xalqın istəyi ilə üst-üstə düşmür. Paşinyan hakimiyyətə gələn gündən təxribat dolu bəyanatlar yayır. Onun separatçı Dağlıq Qarabağ rejiminin danışıqlara cəlb edilməsi fikrini səsləndirməsi vəziyyəti daha da çətinləşdirib. Danışıqlar prosesinin formatını dəyişdirmək istəyi Azərbaycanın sərt reaksiyasına səbəb olub. Artıq Ermənistan əhalisi Paşinyanın populist çıxışlarını deyil, konkret iş və nəticə gözləyir. Düşdükləri çətin sosial və iqtisadi uçurumdan xilas olmaq istəyir. Görünən isə odur ki, Nikol Paşinyanın şəxsi ambisiyaları xalq və vətən sevgisindən daha üstündür. Bu isə, Ermənistan üçün yeni bir uçurumun başlanğıcı deməkdir. İstənilən halda, işğalçı və cinayətkar rejimlə idarə olunan Ermənistan öz yalanları ilə, artıq nə həmsədrləri, nə də beynəlxalq ictimaiyyəti aldada bilmir. Əgər belə davam edərsə, haqqın və ədalətin yanında olan Azərbaycan dövləti öz ərazi bütövlüyünü, suverenliyini, sülh danışıqları ilə deyil, müharibə yolu ilə azad etməklə təmin etməli olacaq. Çünki beynəlxalq Konvensiyalar, o cümlədən, qətnamələr də müvafiq reallığı əks etdirməkdədir. Bütün bunların qarşısının alınması üçün isə, beynəlxalq ictimaiyyət Ermənistanın təxribatlarına sərt reaksiya verməli və bu ölkənin işğalçı siyasətinin, sülh danışıqlarını sabotaj etməsinin qarşısını almalıdır. Əks halda, daxilində siyasi-iqtisadi böhranlar və hakimiyyətdaxili çarpışmalar yaşayan Ermənistan gözləmədiyi yerdən çox ağır zərbə dadmalı olacaq!

**A.SƏMƏDOVA**

## “Əhalinin sağlamlığının qorunması dövlət siyasətinin başlıca istiqamətlərindəndir”



Əhalinin sağlamlığının və qida təhlükəsizliyinin qorunması dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Bunu SİA-ya millət vəkili Rauf Əliyev deyib. Deputat deyib ki, Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətlərindən biri əhalinin sağlamlığının və qida təhlükəsizliyinin təmin olunmasıdır: “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair “Strateji Yol Xəritəsi”ndə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək, qida təhlükəsizliyinə nəzarət sistemini təkminləşdirmək, bu sahədə şəffaflığın artırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Fərmanı ilə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi yaradılıb. Agentlik yaradıldıqdan sonra əhalinin qida təhlükəsizliyinin təmin olunması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilir və bu istiqamətdə işlər davam etdirilir. Millət vəkili olaraq qida təhlükəsizliyi ilə əlaqədar, respublikamızın müxtəlif bölgələrində, o cümlədən Bakı şəhərində baytarlıq-sanitariya və baytarlıq-gigiyena tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan ət məhsullarının istehsalı və satışı ilə məşğul olan şəxslərin qanunsuz fəaliyyətlərinin qarşısının alınması ilə əlaqədar bu məsələləri tez bir zamanda həll edilməsinin vacibliyini dəfələrlə mətbuatda qaldırmışam. Agentlik tərəfindən bu sahədə yol verilən nöqsanların aradan qaldırılması üçün, qaldırılan məsələlərin həll edilməsi məqsədi ilə öz səlahiyyətləri daxilində müvafiq işlər görülür”.

R.Əliyev qeyd edib ki, bu günlərdə Agentlik tərəfindən qarayara xəstəliyi ilə əlaqədar açıqlama yayılıb. Bildirilib ki, Sabirabad rayonunun iki nəfər sakinində qarayara xəstəliyi ehtimalı ilə daxil olan məlumat əsasında Agentliyin mütəxəssislərindən ibarət qurup yaradılıb və hadisə yerinə ezam olunublar: “Qeyd etmək lazımdır ki, bu ilin iyul ayında Sabirabad rayonunda daha iki nəfərdə qarayara aşkar olunmuşdu, onlardan biri bu xəstəlikdən vəfat etmişdi. Hazırda mütəxəssislər tərəfindən törədicilərin müəyyən olunması istiqamətində araşdırmalara başlanılıb. Bu onu göstərir ki, Agentlik tərəfindən kütləvi informasiya vasitələrində qida təhlükəsizliyi ilə və müəyyən infeksion xəstəliklər barədə yayılmış məlumatlara diqqətlə yanaşılır və məsələlərin həlli üçün müvafiq tədbirlər görülür. Baş verən hadisələr eyni zamanda göstərir ki, bu sahədə hələ görüləsi işlər çoxdur. Qida Təhlükəsizliyi Agentliyi və bu sahəyə cavabdeh olan digər qurumlar yuxarıda qeyd olunan halların qarşısının alınması məqsədi ilə qabaqlayıcı, proflaktik tədbirlərin həyata keçirilməsi istiqamətində işlərini gücləndirməlidirlər. Eyni zamanda bu mühüm məsələnin həllində yerlərdəki müvafiq dövlət orqanları, yerliözünüidarə qurumları və sakinlər yaxından iştirak etməlidirlər”.

*Ceyhun RASİMOĞLU*

## “"Uşaq pulu” müavinətinin hamıya verilməsini doğru hesab etmirəm”



“Son günlər uşaq pulunun bərpa edilməsi barədə səslənən fikirlər cəmiyyətdə ən çox müzakirə edilən və bir mənalı qarşılanmayan bir mövzuya çevrilib. Əslində insanlar arasında deyilən “uşaq pulu” sosial müavinətin bir formasıdır. Bilirik ki, sosial müavinət konkret hədəf qruplarına yönəlir və onun hamıya ünvanlanması düzgün də deyil”. Bunu SİA-ya açıqlamasında Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov deyib.

Sədrin sözlərinə görə, vaxtilə SSRİ dövründə ölkəmizdə verilən uşaq pulu bütün ailələri əhatə edirdi: “O zaman insanların biznesi, fərdi təsərrüfatı yox idi və o zaman üçün bu sosial müavinətin hamını əhatə etməsi başa düşülən idi. Artıq bizim ölkəmizdə 2006-cı ilin yanvar ayının 1-dən aztəminatlı ailələrə dövlət qayğısının daha ədalətli forması tətbiq edilməyə başladı. Amma, məsələ bundadır ki, bu məsələdə şəffaflıq təmin edilmədi. Ona görə də ünvanlı sosial yardım doğru ünvanını tapa bilmədi. Daha çox regionlarda bu işə məsul olan məmurlar acgözlüklə dövlətin bu humanist aksiyasına haram qatdılar və nəticədə dövlətin yardımı bir çox hallarda aztəminatlı ailələrdən yan keçdi. Təəssüflər olsun ki, əlillik dərəcələrinə görə verilən təqaüdlərdə də bu kimi neqativlər hələ də qalmaqdadır. Yenə də vaxtilə məmurların günahı ucbatından nə qədər insanlar saxta əlillik dərəcələri ilə təmin edilib və illərdir dövlətin pulunu yeməkdə davam edirlər. İnsanlar var ki, həqiqətən də fiziki qüsurludurlar, onlar halal müavinətlərini ala bilmirlər, amma, sağlam, heç bir xəstəliyi olmayan insan birinci qrup əlil kimi dövlətin pulunu yeyir və bunu özünə rəva bilir. Ona görə də, hesab edirəm ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi vaxtilə sələflərinin tamahkarlıqla etdikləri qanunsuzluqları aradan qaldırmalıdırlar. Bununla da həm qanunsuz pensiyaların təyin edilməsindəki ədalətsizliyi aradan qaldırmalıdır, həm də ünvanlı sosial yardımın doğru ünvanlanmasını təmin etməlidir.

Azərbaycan Respublikasının Prezidenti hər bir vətəndaşının yaxşı və firəvan yaşamasının arzusundadır və bu gün ölkəmizdə sosial müavinətlərin xeyli forması tətbiq olunmaqdadır. Və bu sosial müavinətlər ilbəil artırılır, və yaxud fərqli formalarda tətbiq olunur. Dövlət rəhbərimizin həyata keçirdiyi siyasətin əsasında Azərbaycan insanı, onun rifah halının yaxşılaşdırılması dayanır və həyata keçirilən siyasət sosial yönümlüdür. Bu baxımdan dövlətimiz uşaq pulunun bərpasından daha çox ailələrin yaşayışına təsir göstərə biləcək ünvanlı sosial yardımın doğru-düzgün ünvanlanmasında maraqlıdır.

Konkret “uşaq pulu” müavinətinin isə hamıya verilməsini doğru hesab etmirəm. Bilirik ki, yüksək əmək haqqı alan, maddi imkanları yüksək olan təbəqə var və bu kimi ailələrə uşaq pulunun verilməsi doğru deyildir. Həmin insanlar bu dövlətin imkanlarından yararlanaraq yüksək əmək haqqı alırlarsa, mal-mülk yiyəsi olublarsa, yaxud iş adamına çevriliblərsə deməli onların övladlarının qeyd olunan müavinətdən azad edilməsində heç bir ədalətsizlik yoxdur. Həm də, burada bir daxili mədəniyyət məsələsi var. Nədən imkanları olan insan özünü ələbaxan kimi aparmalıdır və dövlətin yardımına göz dikməlidir? İmkanı olan ailə başçısı niyə görə imkansıza çatmalı olan sosial yardımı almağı özünə ayıb bilməməlidir? Və yaxud, sağlam adam necə əlillik təqaüdünü almağı özünə sığışdıra bilməlidir? Ola bilsin hansısa vətəndaş ayıb da bilməsin, qanunsuz olaraq özünə təqaüd də düzəltdirmək və ya ünvanlı sosial yardıma sahib olmaq istəsin, amma, bu işdə dövlət öz ədalətini ortaya qoymalıdır, şəffaflığı təmin etməlidir və onun bu məsələlərə cavabdeh qurumları, aidiyyatı məmurlar qanunla və vicdanla işləməlidirlər. Və bu işdə qanunsuzlğa yol verən hər bir məmur ən sərt şəkildə cəzalanmalıdır. Bu gün Azərbaycanda rəsmi statistikaya görə yoxsulluq 5 faizdir və dövlətin bu ailələri müəyyənləşdirməklə bağlı şəffaflığı təmin etməsi və uşaq pulu müavinətinin yerinə ünvanlı sosial yardımı bu ailələrə verməsi daha doğru olardı”.

*Ceyhun Rasimoğlu*

## Arzu Nağıyev: “Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının Bakı iclası mühüm əhəmiyyətə malikdir”



Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının bu günlərdə Bakıda keçirilən XXII iclası hər hansı təhdidlərə qarşı mübarizənin aparılması və bu istiqamətdə informasiya mübadiləsinin həyata keçirilməsi baxımından çox məhsuldar olub. Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq Arzu Nağıyev deyib. A.Nağıyev bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev tədbir iştirakçılarını qəbul etdi və görüşdə çox mühüm əhəmiyyət kəsb edən məsələlərə toxundu. Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər bu gün dünyada baş verən proseslər, müxtəlif dövlətlərə olan təhdidlərin qarşısının alınması və bu məsələdə belə konfransların əhəmiyyəti ilə bağlı idi. Dövlətimizin başçısı iclas iştirakçılarına təbrik məktubu da ünvanladı. Təbrik məktubunda əsas məqamlara toxunan Prezident İlham Əliyev müasir dünyada sülhə və sabitliyə nail olmaq üçün hansı prioritet istiqamətlərdə işin vacib olduğundan, regional və qlobal təhlükələrin dəf edilməsi üçün dünya dövlətlərinin fəaliyyətlərinin koordinasiya edilməsinin zəruriliyindən bəhs etdi. Prezident bir daha qardaş türkdilli ölkələrin əlaqələrinin möhkəmlənməsinin Azərbaycan üçün də xüsusi önəm kəsb etdiyini vurğuladı. Eyni zamanda, dövlət başçısı regional təhlükəsizliyin təmin edilməsi üçün ekstremizmin, terrorçuluğun, separatçılığın, qeyri-qanuni miqrasiyanın, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması, transmilli cinayətkar qruplara qarşı mübarizənin daha da gücləndirilməsindən bəhs etdi.

Politoloq qeyd edib ki, dövlətimizin başçısının uğurlu siyasətinin nəticəsi kimi, bu gün Azərbaycan və onun xüsusi xidmət orqanları beynəlxalq təhlükəsizliyin təmin edilməsində etibarlı tərəfdaş olaraq qəbul edilir.

A.Nağıyev vurğulayıb ki, hər hansı təhdidlərə qarşı mübarizənin aparılması və bu istiqamətdə informasiya mübadiləsinin həyata keçirilməsi çox mühüm əhəmiyyət kəsb edir: “Bu məqamlar Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-leytenant Əli Nağıyevin də çıxışında öz əksini tapdı. Diqqəti cəlb edən məqamlardan biri də son iclaslarda müşahidəçi qismində iştirak edən Özbəkistanın Dövlət Təhlükəsizliyi Xidmətinin konfransın daimi üzvü olması üçün müraciət etməsi oldu və bu da müsbət qarşılandı. Belə tədbirlərin təşkil edilməsi bir daha göstərir ki, bu gün istər qlobal, istər regional səviyyədə, istərsə də ölkələrin özlərinə qarşı yönələn təhdidlərin qarşısının alınması baxımından bu konfrans mühüm əhəmiyyətə malikdir”.

## Prezident təqaüdçüsü: “Bu humanist addım tələbələrin daha yaxşı oxumasına stimul verəcək”



Prezident İlham Əliyevin 2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında 9 sentyabr tarixli Sərəncamı təhsilə dövlət qayğısının daha bir təzahürüdür. Bu Sərəncam tələbələrin maddi çətinliklərinin aradan qaldırılması, onlarda elmə marağın yaradılması məqsədi daşıyır. Məncə, bu humanist addım tələbələrin daha yaxşı oxumasına stimul verəcək. Adımı Prezident təqaüdçülərinin siyahısında görəndə çox sevindim. Buna görə dövlətimizin başçısına ailəmiz adından minnətdarlığımı bildirirəm.

Bu sözləri AZƏRTAC-a müsahibəsində 2019-2020-ci tədris ili üzrə ali məktəblərə qəbul imtahanlarında göstərdiyi yüksək nəticəyə görə Prezident təqaüdünə layiq görülmüş Ləman Ağazadə deyib.

Ləman Ağazadə Azərbaycan Dillər Universitetini seçməsini universitetin geniş beynəlxalq əlaqələrə malik olması ilə izah edib. O, Koreya dili ixtisasını daha çox iş imkanları yaratdığı üçün seçdiyini bildirib. Ləmanın gələcək planlarına universitetdə bir neçə dili dərindən mənimsəyərək təhsilini xaricdə davam etdirmək, özünü sinxron tərcümə sahəsində peşəkar kadr kimi formalaşdırmaq, yazıçı, ssenarist kimi fəaliyyət göstərmək də daxildir.

Qeyd edək ki, Bakı şəhəri 318 nömrəli tam orta məktəbi fərqlənmə ilə bitirən Ləman Ağazadə qəbul imtahanlarında 672 bal toplayıb. Göstərdiyi nəticəyə uyğun olaraq o, Azərbaycan Dillər Universitetinin (ADU) Tərcümə fakültəsinə (Koreya dili üzrə) qəbul olunub.

## Bakıda Azərbaycan-Tacikistan biznes forumu keçiriləcək

Sentyabrda Bakıda Azərbaycan-Tacikistan biznes forumunun keçirilməsi nəzərdə tutulur. Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan (AZPROMO) məlumat verilib.

# Yerevanın “quyruğu” Kremlin darvazası arasında

*Putin Yerevana getməyə, Avrasiya İqtisadi İttifaqının Yerevan sammiti isə baş tutmaya bilər*

***Məlumdur ki, MDB ölkələrində axtarışa verilən Ermənistanın sabiq müdafiə naziri, general-leytenant Mikael Arutunyanın Rusiya Federasiyasındakı axtarışı ləğv edilib. Bu barədə “İnterfax” agentliyi məlumatlı mənbəyə istinadən xəbər yayıb. “ Rusiya Federasiyası ərazisində Yerevanda baş verən və 1 mart 2008-ci il hadisələrinə görə ittiham edilən Arutunyanın axtarışına son qoyulub” deyə mənbə agentliyə bildirib. Məhz bu fakt Ermənistanda baş qaldırmış anti-Rusiya siyasətinə verilən növbəti cavab kimi də dəyərləndirilir. Daha dəqiq desək, verilən qərar Nikol Paşinyanın uğursuz xarici siyasəti, xüsusilə, Rusiyanın prezidenti Vladimir Putinin yaxın dostu hesab edilən Robert Koçaryanın həbsdə saxlamasına qarşı yumşaq desək, qurşaqaltı zərbə kimi də qiymətləndirilə bilər.***



### Nikol Paşinyan son vaxtlar bir neçə dəfə bənzər zərbələrə məruz qalıb

Bu, həm də belə bir nəticəyə gəlməyə əsas verir ki, artıq Putin açıq-aydın şəkildə Ermənistana, daha doğrusu, Paşinyana qarşı təsir qüvvəsini gücləndirmək qərarına gəlib. Çünki Nikol Paşinyan son vaxtlar bir neçə dəfə bənzər zərbələrə məruz qalıb.

Qeyd edək ki, artıq erməni KİV-ləri də bu hadisələrdən doğan və yarana biləcək təhlükələrdən narahatlıqlarını gizlətmirlər. Misal üçün, Ermənistanın “1in.am” saytının analitik bölməsində yazılıb ki, əlbəttə, Moskva gec, ya da tez, bu cür qərarı qəbul edəcədi. “Rusiya hakimiyyəti Arutunyanın Ermənistana ekstradisiya edilməsinə rədd cavabı veriblər və bunu belə motivizə ediblər ki, o, Rusiya vətəndaşıdır” deyə analitik yazıda bildirilir.

Qeyd edək ki, bu günlərdə Putinin hakimiyyətinə müxalifətdə olan Rusiya vətəndaşı Şişkin Ermənistan hakimiyyətindən siyasi sığınacaq istəyib. Bu mənada, erməni KİV-i yazır ki, məhz həmin səbəbə görə, guya Rusiya Arutunyanın axtarışına son qoyub. Lakin belə bir gülməli iddia, həm də digər məsələni agah edir. Belə ki, rus müxalifətçi Şişkin Rusiyada tanınmış və gözəgəlimli siyasi fiqur olmayıb. Arutunyan isə, sabiq müdafiə naziri və general-leytenantdır. Ona görə də, bu iki şəxsin müqayisənin aparılması heç də məntiqli görünmür.

### 1 mart 2008-ci il hadisələrində Koçaryanla yanaşı, Putin də ittiham olunur?

Başqa tərəfdən, ermənilər çalışırlar ki, bu məsələni, məhz sözügedən kontekstdən ictimailəşdirməyə çalışan Paşinyana yaxın media qurumları onun Rusiya qarşısındakı acizliyini gizlətməyə cəhdlər göstərirlər. Amma göründüyü kimi, həmin cəhdlər də puça çıxır və erməni ictimaiyyəti baş nazirlərinin zəifliyini daha açıq şəkildə müşahidə edirlər. Maraqlıdır ki, erməni KİV-ləri Putinin Robert Koçaryanı və onun komandasını müdafiə etməsini, həm də belə əlaqələndirirlər ki, məhz 1 mart 2008-ci il hadisələrində əsas pult yenə də Putinin əlində olub və Koçaryanı da o, idarə edib. Yəni həmin hadisələrdə birbaşa Vladimir Putinin də əlinin olduğu iddia edilir. Ona görə də, o, həm Koçaryanı, həm də həmin hadisələrdə iştirakçı olmuş iqtidar komandasını ciddi-cəhdlə müdafiə edir.

### Erməni KİV-i: “Moskva hazırda erməni-rus böhranının inkişafına doğru gedir”

Ancaq bütün bunlara baxmayaraq, analitik yazıda digər məsələyə də toxunulur. Bildirilir ki, cari il oktyabrın 1-də Yerevanda Avrasiya İqtisadi İttifaqının sammiti keçiriləcək və Putinin həmin sammitdə iştirakı baş tutmaya bilər. “Əlbəttə, bütünlüklə, mümkündür ki, Moskva hazırda erməni-rus böhranının inkişafına doğru gedir və başqa səbəblərə görə” deyə yazan erməni saytı qeyd edir ki, Vladimir Putin oktyabrın 1-də keçiriləcək Yerevan sammitinin işinə qatılmaq fikrində deyil, ya da sammitin keçirilməsi tarixi dəyişə bilər. Düzdür, Putinin Yerevana səfər edib-etməyəcəyi barədə rəsmi Moskvanın hər hansı bir informasiyası olmasa da, hadisələrin bu məcrada inkişaf edəcəyini gözləmək mümkündür. Hər halda, artıq Yerevanın quyruğu Kremlin darvazaları arasında ilişib və möhkəm şəkildə sıxışmaqdadır.

***Rövşən RƏSULOV***

---

# İşğalçı Ermənistanın 3,2 milyard dollarlıq dəmir yolu xətti ilə bağlı xam xəyalları



Azərbaycan ərazilərinin 20 faizini işğal etmiş və beynəlxalq hüquq normalarına zidd olan bu qanunsuz hərəkətləri ucbatından təcrid olunmuş, iqtisadiyyatı çökmüş və demoqrafik problemlərlə üzləşmiş Ermənistan oktyabrın 1-də Yerevanda keçiriləcək Avrasiya İqtisadi Birliyinin sammitində iştirak edəcək İran Prezidenti Həsən Ruhaniyə böyük ümidlər bəsləyir. Söhbət həyata keçirilməsi mümkün olmayan və Ermənistan hökumətinin maliyyə imkanları üçün fantastik məbləğ təşkil edən 3,2 milyard dollarlıq dəmir yolu xəttinin tikintisindən gedir.

AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, Ermənistan hökuməti bu mövzu ətrafında İran rəsmiləri ilə dəfələrlə müzakirələr aparıb. Erməni şərqşünası Vardan Voskanyan jurnalistlərə müsahibəsində bildirib ki, Türkiyə və Azərbaycanı yan keçməklə çəkilməsi nəzərdə tutulan bu nəqliyyat xətti üzrə proqram hələ 2014-cü ildə qəbul olunub. İndi ermənilər üçün xəyal olan həmin layihənin “dirilməsi” üçün yenidən İran Prezidentinə müraciət ediləcək. Ermənilərin İranı şirnikləndirəcəyi əsas cəhət isə Tehranın guya bu dəmir yolu ilə Qara dənizə və oradan da Çinə daha asan çıxış əldə edəcəyidir. Amma İran-Çin-Ermənistan formatında layihə həyata keçirilməsi xəyalında olan ermənilər özləri də etiraf edirlər ki, iranlı tacirlərin Uzaq Şərqə çıxış üçün istifadə edəcəkləri çoxlu sayda nəqliyyat dəhlizləri mövcuddur. Həsən Ruhaninin səfəri ərəfəsində erməni mətbuatında qaldırılan bu məsələ isə yəqin ki, yenə də real sərmayəçi olmadığından təxirə salınacaq.

Erməni ekspertləri bildirirlər ki, həmin bahalı layihə bir yana dursun, hökumət heç Ermənistanla İran arasında üçüncü yüksəkgərginlikli elektrikötürücü xəttinin tikintisi və bu ölkəyə İran qazının tədarükünün artırılması məsələlərini belə həll edə bilmir. Əsas səbəb yenə də maliyyə çatışmazlığıdır. Həm də nəzərə alınmalıdır ki, müstəqil olmayan və Rusiyanın müvafiq qurumu tərəfindən idarə edilən Ermənistan dəmir yolu idarəsinə sərmayəçi tapmaq o qədər də asan deyil.

# Bu il peşə təhsili müəssisələrinə 12 min 562 nəfər qəbul olunub

2019-2020-ci tədris ili üzrə peşə təhsili müəssisələrinə qəbul olunmaq üçün 16 min 500 namizəd müraciət edib. Peşə Təhsili üzrə Dövlət Agentliyindən bildirilib ki, müraciət edən namizədlərin 12 min 562 nəfəri müsabiqədən uğurla keçərək seçdikləri ixtisas üzrə peşə təhsili müəssisələrinə qəbul olunub. Qəbul iki mərhələdən ibarət olub. Birinci mərhələ avqustun 5-dən 20-dək davam edib. Bu müddət ərzində 11 min namizədin müraciəti qeydə alınıb, namizədlərdən 8 min 808 nəfəri qəbul olunub. İkinci mərhələdə - avqustun 28-dən sentyabrın 5-dək 5 min 500 nəfər qeydiyyatdan keçib, onlardan 3 min 754-ü müsabiqədə uğur qazanıb.

## Gəncədə Aşura günü ilə bağlı qanvermə aksiyası keçirilib

***Hər il olduğu kimi, bu il də Aşura günündə Gəncənin “İmamzadə” ziyarətgahında, ənənəvi olaraq, ehtiyacı olan xəstələrə yardım məqsədilə könüllü qanvermə aksiyası keçirilib. Ötən gün səhər saat 09:00-dan başlayan qanvermə aksiyasında Gəncə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev, ərazi ilk partiya təşkilatlarının sədrləri, gənc partiya fəalları və ictimaiyyət nümayəndələri qanvermə aksiyasında iştirak ediblər.***



Qeyd olunub ki, humanist xarakterli aksiyada toplanan qan hemofiliyalı və talassemiyalı, həmçinin, qana ehtiyacı olan bütün xəstələrin müalicəsində istifadə olunacaq.



Onu da xatırladaq ki, sentyabrın 6-da Yeni Azərbaycan Partiyası və partiyanın Gənclər Birliyinin təşəbbüsü ilə qanvermə aksiyası keçirilib. Partiyanın çoxsaylı üzvləri qanvermə aksiyasında fəallıq göstəriblər.

***RÖVŞƏN***

# Müxalifətin uğursuzluq sindromları

*Dağıdıcılıq prinsipindən çıxış edən müxalifətin sonu çatıb*

***Yenə eyni yol, yenə eyni çıxış. Artıq yay fəsli başa çatmaq üzrədir. Əslində, bütün fəsillərdə uğursuzluq sindromunu yaşayan, hətta özlərinə yaşadan müxalifətin dağıdıcı qanadı, yenə də əvvəlki illərdə olduğu kimi, yoxluqlarının sosial şəbəkələrdən mitinq çağırışları etməklə, meymunluq edirlər desək, yanılmarıq. Bu cəhdlərdən heç bir nəticənin hasil olmayacağını da bilsələr, yenə də AXCP sədri Ə.Kərimli, onun qulbeçəsi Cəmil Həsənli, minsifətlilik nümunəsi Gültəkin Hacıbəyli və... bu kimi əxlaqsız və satqınlar sosial şəbəkələrdə mitinq çağırışları etməklə, xalqın nifrətini birə on qat artırırlar.***




Siyavuş Novruzov: **'Müxalifət, sosial bazası olmadığına görə, mitinq keçirə bilmir"**

Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov bildirib ki, Azərbaycanda müxalifətin mitinq keçirməməsinin səbəbi sosial baza və elektoratlarının olmamasıdır. Mitinq keçirilməsi üçün şəhərin mərkəzində yer ayrılır, amma müxalifət aksiya keçirə bilmir: "Mitinq keçirilməsi üçün ayrılan yer əhalinin sıx yaşadığı məkandır. Bütün bunlara baxmayaraq, mitinqdə iştirak edən olmur. Yəni sosial baza yoxdur, ona görə də, müxtəlif bəhanələr gətirirlər".

S.Novruzov onu da qeyd edib ki, hakimiyyət aksiyada iştirak edənlərə heç bir təzyiq göstərmir: "Azərbaycanda sərbəst toplaşmaq azadlığı tam təmin olunur. Müxalifətin sosial bazası olmadığına görə, bu cür bəhanələr gətirirlər. Mitinq keçirmək istəyənlər Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edir. İcra hakimiyyəti də müvafiq yer ayırır. Bakı Şəhər Baş Polis İdarəsi də onların təhlükəsizliyini təmin edir".

S.Novruzov onu da bildirib ki, Yeni Azərbaycan Partiyasının mənzil qərargahında, YAP İcra Katibliyi də daxil olmaqla, Bakı və Abşeron üzrə rayon təşkilatlarının nümayəndələri, Milli Məclisin deputatlarının iştirak etdiyi növbəti qanvermə aksiyasında iştirak etdiyini, ancaq müxalifətin çirkin əməllərlə məşğul olduğunu bildirib: "Müxalifət nə ağac əkir, nə də qan verir. Onların addımları yalnız söyüş və təhqirdən ibarətdir. Mən həmin siyasi təşkilatları da qanvermə aksiyasında iştirak etməyə dəvət edirəm. Gəlsinlər, qan versinlər".

**Xarici qaranlıq dairələrə nökərçilik edərək, üzərlərinə "beşinci kolon" damğası vurduranlar gec, ya tez, siyasi arenadan silinəcəklər**

Əslində, müxalifət bu çağırışa layiq olmadığını yaxşı bilir. Çünki dağıdıcı müxalifətin uğursuzluq sindromlarının özəyini təşkil edən əsas amil partiyaların iqtidarın apardığı siyasətin mahiyyətini anlamaq gücündə olmamalarıdır. Hakimiyyətin apardığı uğurlu daxili və xarici siyasətin məntiqi nəticələri ortada ola-ola, xalqın böyük kəsiminin, məhz iqtidara dəstək verməsi faktorunun mövcudluğu dəfələrlə sübut olunduğu halda, müxalifətin inkarçılıq mövqeyindən çıxış etməsi "liderlər"in əsas zəifliklərinin bariz göstəricisi kimi də qiymətləndirilə bilər. Sadəcə, faktlara diqqət yetirək və həmin faktlardan nəticə çıxaraq. Misal üçün, iqtisadiyyat, mədəniyyət, iqtisadiyyat və sair sahələrdə Azərbaycan iqtidarının keçirdiyi bütün mühüm tədbirlər dərhal sosial şəbəkədə oturub, "müxalifətçilik" edənlər tərəfindən hədəfə alınır və müxtəlif xarici təşkilatların verdikləri sifariş xarakterli təlimatlar icra olunur. Azərbaycan hakimiyyətinin əldə etdiyi uğurların reallığıdır ki, xaricdə fəaliyyət göstərən erməni lobbiləri və onların buyruq qulları həmin reallıqdan qorxur və çəkinirlər. Bu səbəbdən də, "beşinci kolon" amili ortaya çıxır. Daha dəqiq desək, xarici anti-Azərbaycan dairələr hakimiyyətin siyasi gücünü bilir və dərk edirlər. Ona görə də, bəlli məsələlər ətrafında var-gəl edərək, ölkəmizin siyasi-ictimai həyatına müdaxilələr etməyə cəhdlər göstərirlər. Biz, bunu istər seçkilərdə, istər referendumlarda, istərsə də digər mühüm hadisələr ərəfəsində dəfələrlə müşahidə etmişik. Ancaq söz yox ki, dağıdıcı təfəkkürlü müxalifətin hakimiyyətdə yalnız minus axtarması, onların özlərinə kifayət qədər zərbələr vurur.

Digər bir məqam isə, son günlər dövlətin apardığı uğurlu sosial islahatlara gölgə salmaq üçün mitinq çağırışları etməklə, "birliyə" çağırır. Həyasızlığın dərəcəsinə bax ki, yarandıqları gündən öz aralarında "birlik" deyilən məfhumdan uzaq olan satqınlar birbirilərinin ayağından dartır. Məsələn, AXCP-"Milli Şura" cütlüyü mitinq keçirir, Müsavat və s. partiyalar onlara gülür, istehza edir və elektorat toplaya bilmədiklərini misal çəkirlər. Eləcə də, müsavatçılar və s. radikal müxalifət partiyaları eyni addımı atanda, cəbhəçilər eyni mövqedən çıxış edərək, özlərini onlardan üstün tuturlar.

Görünən budur ki, belə müxalifətin fasildən-fasilə üzə çıxması və guya siyasət yürütməsi hər ötən ilin təkrarı olacaq. Ona görə də, xarici qaranlıq dairələrə nökərçilik edərək, üzərlərinə "beşinci kolon" damğası vurduranlar gec, ya tez, siyasi arenadan silinəcəklər. İstəsələr də, istəməsələr də, xalq onları qəbul etmir və onlar özləri də özlərini xalqdan təcrid ediblər. Belə olan halda isə, artıq uzun müddətdir ki, verilən proqnozlar öz nəticələrini tapacaq.

**Rəfiqə HÜSEYNOVA**

# Xarici sponsorlar da müxalifətlə iş birliyinin səmərəsiz olduğunu dərk edirlər

***"Milli Şura" deyilən qondarma qurum növbəti mitinqlər keçirmək və bu mitinqlərə daha çox müxalifət partiyalarını cəlb etməyi planlaşdırır. Təbii ki, cəmiyyətdə heç bir nüfuzu olmayan AXCP sədri Əli Kərimli və "Milli Şura"nın rəhbəri Cəmil Həsənli xaricdən verilən sifarişləri, tapşırıqları yerinə yetirə bilməyəcəklər. Çünki cəmiyyət onların riyakar və dövlətçiliyə zidd fəaliyyət yolu tutduqlarını bilir. Bu baxımdan, söhbət etdiyimiz müsahiblərimizin də dediyi kimi, müxalif təxribatçı şəbəkə mitinq keçirmək arzularını reallaşdıra bilməyəcəklər.***

"Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova: **"Əli Kərimli digər müxalif partiyalarla əməkdaşlıq körpülərini çoxdan yandırıb"**



- Bu gün Azərbaycan cəmiyyətində mitinq çağırışları üçün heç bir əsas yoxdur. Vətəndaşları narahat edən problemlər ardıcıl şəkildə Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə həll edilir. Son bir ildə iki inqilabi mahiyyət daşıyan sosial islahatlar paketi reallaşdırıldı. Milyonlarla vətəndaşımız sosial rifah halının yaxşılaşdırılmasını nəzərdə tutan bu islahatlardan bəhrələndi. Belə bir durumda "Milli Şura" və AXCP sədri Əli Kərimlinin mitinqlər keçirmək istəyi "sadəcə" həmin qüvvələrin xaricdən aldıqları sifarişləri yerinə yetirmək üçün cəhdindən başqa, bir şey deyil. Son illərdə biz bu cür çağırışları tez-tez eşidirik. Lakin mitinqlərə icazə verildikdə belə, oraya çox az sayda insanın qatıldığının şahidi oluruq. İstər "Milli Şura", istərsə də AXCP-nin bu çağırışları, sadəcə, xaricdəki sponsorlarına özlərini təsdiq mahiyyəti daşıyır. Digər müxalifət partiyalarının bu mitinq çağırışlarına qoşulması üçün atılan addımlar da, heç bir effekt verməyəcək. Çünki Əli Kərimli və "Milli Şura" müxalifətdəki digər partiyalarla əməkdaşlıq körpülərini çoxdan yandırıb. Azərbaycan cəmiyyəti də, artıq adlarını çəkdiyimiz qüvvələri siyasi çəkiyə malik qüvvə kimi qəbul etmir, onları inkar edirlər. Cəmiyyətimiz on illər boyunca, sadəcə, pafos naminə, səsləndirilən eyni tezisləri və şüarları eşitməkdən yorulub.

Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: **"Xalq müxalifəti məzhəkəyə qoyub və dinləmək belə istəmir"**



- Biz dəfələrlə müxalifətin bu cür şoularının şahidi olmuşuq. İllərdir bunların fəsli çağırışlarını və iflasa uğramalarını xalq görüb. Beləcə, illərdir, bunlar və ətraflarında olan az saylı "müxalifətçilər" xarici sifarişlə işləyib maliyyə əldə edəcək heç bir vergi ödəmədən, yaşayışlarını təmin edirlər. Bu dəfə də payız çağırışları deyilən şou-tamaşanın anonsunu verirlər. Yalnız adları qalan bir sədr və bir neçə çayxana "generalları"ndan ibarət olan digər müxalif partiyaları da cəlb etməklə, tamaşanı rəngarəng etməyə çalışırlar. Eyni ssenari, eyni düşüncə, eyni baxış. Vəssalam, bundan artığına qadir deyillər. Xalq artıq müxalifəti məzhəkəyə qoyub və dinləmək belə istəmir. O ki qaldı sifarişi yerinə yetirmək məsələsinə, sadəlövh vətəndaşlarımızı da, saysaq, bir neçə min insanı stadiona toplayıb (onun da yarısı hüquq-mühafizə orqanları və jurnalistlərdir) populist çıxışlarla növbəti layihələrinin hesabatını xarici donorlarına təqdim edəcək, 2019-cu il maliyyələrini alacaqlar. Sonra da virtual aləmdə olacaqlar mücahid. Bunların bacarıqları barədə bu qədər.

**GÜLYANƏ**

# "Siyasi məhbus" oyunbazlığı - dağıdıcıların gəlir mənbəyi

Dəfələrlə sübuta yetirilib ki, qondarma siyasi məhbus siyahılarının hazırlanmasının arxasında müəyyən siyasi maraqlar, xarici dairələr dayanır, hətta "işçi qrup" deyilən qurumda birləşən və bu məsələdə maraqlı olan bəzi (!) "hüquq müdafiəçiləri" müxtəlif şəkildə "siyasi məhbus" siyahılarındakı bəlli maraqlarını güdürlər. Əbəs deyil ki, məlum xarici təşkilatlar və həmin təşkilatlara bağlı olan Avropa və Qərb qurumları Azərbaycan dövlətinə təzyiqin müxtəlif yollarını fikirləşərkən, bu cür "hüquq müdafiəçiləri" ilə əlbir olurlar. Ümumiyyətlə, bu ətrafda təhlillər aparılarkən, bu cür nəticəyə gəlmək olar. Belə ki, "siyasi məhbus" oyunbazlığı ətrafında hazırlanmış qondarma siyahılar, əslində, biriləri üçün münbit gəlir mənbəyidir.

**"Siyahılarda" adları çəkilən şəxslərin əməllərində cinayət tərkibinin olması şübhəsizdir!**

Digər bir tərəfdən, o da məlum olur ki, "hüquq müdafiəçiləri" heç bir aidiyyatı olmayan şəxsləri "siyasi məhbus" siyahısına salmaqla, onların işini yüngülləşdirmir, əksinə, ağırlaşdırırlar. Çünki bu adamlar da yaxşı bilirlər ki, təzyiq yolu ilə Azərbaycana hər hansı bir təsir göstərmək mümkün deyil. Eyni zamanda, "siyahılarda" adları çəkilən şəxslərin əməllərində cinayət tərkibinin olması da kimsədə şübhə doğurmur. Ona görə də, bu gün yaramaz və yanlış yol tutaraq, qondarma siyahılar hazırlamaqla, öz şəxsi maraqlarını gələcəkdə təmin etmək istəyən "hüquq müdafiəçiləri", "QHT-çilər" və siyasi partiyalara bağlı olan insanlar bu yoldan çəkinməyə məcburdurlar. Çünki başqa çıxış yolları yoxdur.

**Beləəri uzun illərdir ki, "siyasi məhbus"ların hansı kriteriyalara aid olduqlarını əsaslandıra bilmirlər**

Bu arada millət vəkili Çingiz Qənizadənin sözügedən mövzu ilə bağlı mediaya verdiyi açıqlamasını xatırlaya bilərik. O, bir müddət əvvəl bildirmişdi ki, indiyə qədər beynəlxalq təşkilatlar və Avropa Şurası "siyasi məhbus" sözünün mənasının, belə siyahıların hansı kriteriyalara əsasən, tanındığını normal şəkildə tapıb, ortaya qoya bilməyib: "Təəssüf ki, illərdir, bu istiqamətdə söhbətlər gedir. Azərbaycan və digər dövlətlər tələb edirlər ki, "siyasi məhbus"ları hansı kriteriyalara əsasən, müəyyən etdiklərini açıqlasınlar. Təəssüf ki, bu günə qədər məsələ açıq qalır və beynəlxalq təşkilatlar hansı dövlətlərdə "siyasi məhbus" görmək istəyirsə, göndərilən siyahılara "hə" deyirlər. Bu isə, siyasi və digər maraqlardan irəli gəlir".

Yeri gəlmişkən, onu da xatırladaq ki, Azərbaycanın nümayəndə heyəti Avropa Şurasının tədbirlərində və sessiyalarında iştirak edərkən, dəfələrlə bu məsələləri qabardılıb. Sadəcə, bu qurumda olan qərəzli məruzəçilər haqlı tələblər qarşısında susqun qalıblar. Görünür, yenidən bu kimi məsələlərlə ölkəmizə qarşı təzyiqlər göstərməyə çalışan yerli "hüquq müdafiəçiləri" və onların xarici havadarlarına növbəti dəfə gerçək hüquq dərsi keçməyin zamanı çatıb.

**Rövşən RƏSULOV**

# “Siyasi mühacir” satqınları

## *Və yaxud erməni lobbisinin dəmtutanları*

***“Ağacı içindən qurd yeyər” deyimi bugünükü dağıdıcı müxalifət düşərgəsinə aiddir. Güclü Azərbaycan dövləti dinamik inkişaf etdikcə, müxalifətin içi alışıb-yanır. Başlayırlar sosial şəbəkələrdə mitinq keçirmək çağırışı etməyə və xaricdə “siyasi mühacir” adı ilə sülənənlərə də göstərişlər verirlər ki, onlar da, bu çağırışı etsinlər. Bax, budur, alçaq xislətli satqınlıq və əxlaqsızlıq. Bu yerdə böyük satirik şairimiz Mirzə Ələkbər Sabirin “Daş qəlbli insanları neylərdin, İlahi” şeiri yadıma düşdü:***

*Daş qəlbli insanları neylərdin, İlahi?*
*Bizdə bu soyuq qanları neylərdin, İlahi?*

Bu insanlar daş qəlbli yox, alçaq, əxlaqsız və mənəviyyatsızlardır. Sabir rəhmətlik belə satqınları, xalqına, dövlətinə xəyanətkarlıq edib, özlərini satmaqla satılmağı da bacaranlara başqa cür deyərdi: “Ar olsun alçaqlıq bataqlığında eşələnənlərə! Lənət olsun erməni üfunəti verənlərə! Azərbaycan dövlətinə düşmən qüvvələrin əlində aləti olmaqla, heç vaxt çirkin niyyətlərinizə çata bilməyəcəksiniz. Çünki Azərbaycan güclü dövlətdir, ölkəmizdə sarsılmaz xalq-iqtidar birliyi mövcuddur.

### Siyavuş Novruzov: “Avropada küçə süpürməklə məşğul olan 5 və adını “siyasi mühacir” qoyanla zibilliklərdə eşələnirlər”

YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov sözügedən məsələ ilə bağlı açıqlamasında bildirib ki, Vətən, xalq təəssübündən məhrum olan və Avropanın müxtəlif ölkələrində məskunlaşan “mühacirlər”in sosial şəbəkələrdə dövlətə və xalqa qarşı əxlaqsızcasına “qara piar” kampaniyasını davam etdirməsi, şübhəsiz, anti-Azərbaycan dairələrin, erməni lobbisinin “ənənəvi layihələr”inin növbəti epizodudur: “Hamımız yaxşı bilirik ki, anti-Azərbaycan dairələrin ölkəmizdə reallaşdırılan yerli və beynəlxalq əhəmiyyətli tədbirlər ərəfəsində “sapı özümüzdən olan baltaları” tora salaraq, öz çirkin və məkrli oyunlarına alət edərək, respublikamızı hədəfə almaları uzun illərdir ki, “ənənə” halını alıb. Anti-Azərbaycan dairələrin, erməni lobbisinin və onlarla işbirliyində olan milli satqınların- müxtəlif bəhanələrlə Qərbin ayrı-ayrı ölkələrində məskunlaşaraq, zibilxanalarda küllənən orduxanların, turalların, məhəmmədlərin, rafayılların, eləcə də, AXCP sədri Əli Kərimlinin, “Milli Şura”nın rəhbəri Cəmil Həsənlinin, qondarma “hüquq müdafiəçisi” Leyla və Arif Yunusların, həmçinin, onların tör-töküntülərinin, “yaldaşlar”ının, el arasında deyildiyi kimi, “fısları yatacaq”. Bu xəyanətkarlar öz ağalarından aldıqları “yemlərini” nəhəng pitonlar kimi udub, bir müddət gizlinə çəkiləràk, onu həzm etməklə məşğul olacaqlar.Azərbaycan əleyhdarlarının ikrah doğuran əməlləri bütün detalları ilə ortadadır. Onlar Azərbaycanın düşmənləridir. Bəs adını azərbaycanlı qoyaraq, onların dəyirmanına su tökən Vətən və millət dönüklərinin bu mənəviyyatsız, namərd əməllərinə nə ad verməK olar? Ölkəsinə, millətinə, şər-böhtan, təhqir yağdıran bu satqın “söyüş makinaları” Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli və digərləri pul və var-dövlət toplamaq həvəsi milli kimliklərini unutmuş əxlaqsızlardır”.

### Qarğa burunlu Əli Kərimli cəmiyyətdən təcrid edilməlidir

Ötən yazılarımda AXCP sədrinin portretini cızarkən, dəfələrlə qeyd etmişəm ki, Ə.Kərimlinin burnu qarğanın burnuna oxşayır və bunun da səbəbi həmin burnunu hər yerə soxmağa olduğunu da yazmışdım. Çünki onun özü və ətrafı istər sosial şəbəkələrdə, istərsə də mitinqlərdə Azərbaycan dövlətinin maraqlarına qarşı çıxışlar edir, bununla isbatlayırlar ki, zamanında Ə.Kərimli “şeytanla da əməkdaşlığa hazıram” ifadəsini heç vaxt işlətməyib. Əgər bu adam düşmənlərimizlə iş birliyinə gedirsə, deməK, xəyanətkardır. Xəyanət isə, bağışlanılmır!



O da əbəs deyil ki, ölkənin bir sıra tanınmış siyasətçiləri - istər iqtidar, istərsə də müxalifət düşərgəsindən olsunlar, hər biri AXCP sədrinin keçmişi və hazırkı vaxtı ilə bağlı fikir bildirərkən, onun nə qədər xain ünsür olduğunu dilə gətirir.

### Aydın Mirzəzadə: “Əli Kərimli açıq təxribata əl atır”

Millət vəkili Aydın Mirzəzadə də AXCP sədri Ə.Kərimli və partiyanın funksionerləri və fəallarının ictimai asayişi kobud şəkildə pozmaq istəyən, qanunların tələblərinə riayət etməyən, polisə müqavimət göstərən və digər bu kimi qanunazidd əməllər törədən şəxslərə kəsilmiş cərimələrin ödənilməsinə guya yardım göstərmək məqsədilə “xeyriyyə marafonu” adı altında müxtəlif çağırışlar irəli sürməklə, bir daha cinayətkar əməllə sahibi olduqlarını nümayiş etdirdiklərini vurğulayıb və qeyd edib ki, bunda əsas məqsəd qanunu pozmuş və buna görə də, cəzalandırılmış şəxslərə bəraət qazandırmaq, cəmiyyətdə hüquq-mühafizə və məhkəmə sisteminə inamsızlıq formalaşdırmaqdır: “Əslində, həmin şəxslər, bilavasitə Ə.Kərimlinin özünün təlimatı əsasında hüquq pozuntuları törədiblər, qanunsuz aksiyalar keçirməyə cəhd ediblər, polisin qanuni tələblərini yerinə yetirməkdən imtina edərək, müqavimət göstəriblər və digər bu kimi əməllər törədiblər. İndi də Ə.Kərimli hakimiyyət orqanlarına qarşı kampaniya təşkil edir, bu cəzaların əsassız olduğunu isbat etməyə çalışır. Onun bu fəaliyyətini yalnız süni şəkildə ictimai narazılıq, müqavimət hərəkatı kimi formalaşdırmaq, cəmiyyətdə mövcud olan sabitliyi pozmaq cəhdi kimi səciyyələndirmək olar. Belə deməK mümkündürsə, Ə.Kərimli artıq sözdən əmələ keçərək, açıq təxribatla məşğuldur”.

A.Mirzəzadə onu da bildirib ki, bu məsələnin maraqlı tərəfi Ə.Kərimlinin pozucu fəaliyyətinin diqqətdən kənarda qalması, aidiyyəti orqanların buna heç bir reaksiya verməməsidir: “Hüquq- mühafizə orqanları qanunu pozub, aksiya keçirən insanı saxlayır və cəzalandırır. Lakin bunun təşkilatçısına qarşı heç bir tədbir görülmür. Artıq Ə.Kərimli və onun kimi açıq təxribatları təşkil edənlərə “dur” deməyin vaxtı çatıb və aidiyyəti orqanlar bu təxribatların qarşısını daha təsirli metodlarla almalıdırlar”.

### Mirmahmud Mirəlioğlu: “Əli Kərimli sosial şəbəkələrin “qananı”, “təmizi” ola bilər, ancaq onun kimi oyunbaz satqını yoxdur”

Bu arada, KXCP sədri M.Mirəlioğlunun da AXCP sədri barədə dediklərini xatırlamaq olar. O, hələ bir müddət əvvəl demişdi ki, Ə.Kərimlinin bu manyak “arzusu” bu dəfə onun başında bərk partlayacaq. Məsələn, bu günlərdə Ə.Kərimlinin mərhum Əbülfəz Elçibəyin ruhu qarşısında həyasızcasına hər zamankı kimi yenə də sosial şəbəkədə ortalığa düşüb, özünü “qanan” hesab etməsini görərək, bu “əxlaqsızı cavabsız qoya bilmərəm” deyib, cavabını verdi: “Axı sən kimsən ki, ortalığa düşmüsən? Müxalifəti bu günə salan sən oyunbazsan. Ölkədə keçirilən bütün siyasi proseslərdə daha çox siyasi oyunbazlıq və siyasi əxlaqsızlıq nümayiş etdirirsən. Azərbaycan siyasətində sən Ə.Kərimli qədər xəyanətkar görməmişəm”.

KXCP sədri, həmçinin, Ə.Kərimlinin əxlaqsız olduğunu da bildirib: “Mən Ə.Kərimli kimi oyunbazlıq etmirəm, gördüklərimi deyirəm. Siyasətə siyasi əxlaqsızlıq, özündən böyüyə hörmətsizlik etməyi, ayaqaltı qazanlığı, iyrəncliyi, insanlar haqqında çirkin kampaniyalar aparıb ləkələmək, kimi işlərin altına imza atan Ə.Kərimlinin bu gün siyasət aləmində qalmasının özü qəribədir. İndi də bədbəxtçilik ondadır, Bala Kərimli peyda olub. Bu məxluqlar başdan-ayağa kimi zəlidirlər. Belələri, nəinki cəmiyyətin inkişafına yardımçı ola bilər, əksinə, mümkün qədər cəmiyyətə zərər verməklə məşğul olacaq. Bəli, həmişə demişəm, bu gün də deyirəm: ən böyük cinayətkar Ə.Kərimlidir... Tarixə nəzər yetirək: 2003-cü ildə dərs çıxarmağa məcbur olduğunuz hadisələr baş verdi. Ə.Kərimli, İ.Qəmbər evlərində oturdular, qapılarını bayırdan qıfılla bağlatdırıb, mürəbbəli çay içirdilər. Bəs bu zaman Azadlıq Meydanında nə baş verirdi? Bu iki şəxsin pul verib öyrətdiyi, antiazərbaycançı, terrorçu, ermənipərəst insanlar şəhərimizi dağıtmağa cəhd göstərdilər. Dükanların vitrinlərini, şüşələrini sındırdılar, avtobusların təkərlərini partladıb şüşələrini sındırdılar, insanları döydülər. Bu adamların hamısı qanunla öz layiqli cəzalarını aldılar. Ə.Kərimli, İ.Qəmbər, həqiqətən də, müxalifət “lider”ləri idilərsə, nə üçün partiyadaşlarının önündə getmirdilər? Nə üçün partiyadaşları şəhərin küçələrində anarxiya yaradanda, özləri mürəbbəli çay içirdilər? Axı danışanda, tarixdən siyasi mübarizə metodlarından danışırlar. “Lider”iniz önünüzdə olmalı deyildimi? Niyə qaçıb gizlənmişdi? Ə.Kərimli kimi satqınlar gec-tez cəzasını almalıdır!”

### Xainlərə güzəşt edilməməlidir

Bəlkə də belə sərt deyilən söz kimlərdəsə qıcıq yarada bilər. Amma belələrinin çörəyi dizinin üstündədir. Bir də satqından, Vətən xainindən nə gözləmək olar? Xainlərə güzəşt edilməməlidir. Ə.Kərimli kimilər və beləları bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

**Rəfiqə HÜSEYNOVA**

## Ötən il abituriyentlər özəl ali məktəblərdən daha çox kolleclərə üstünlük verib



İmtahanların nəticələrinə əsasən, özəl ali təhsil müəssisələrinin plan yerləri 72,90 faiz dolub. Ayrı-ayrı ixtisas qruplarında plan yerlərinin dolma faizləri fərqli olub. Bu göstəricilər I qrupda 65,48, II qrupda 62,11, III qrupda 89,57, IV qrupda 91,30, V qrupda isə 85,45 faizə bərabərdir. Qeyd etmək lazımdır ki, ixtisas seçimində iştirak edən abituriyentlərin bir hissəsi (I qrupda 15 nəfər, II qrupda 10 nəfər, III qrupda 20 nəfər, IV qrupda 2 nəfər) özəl ali təhsil müəssisələri ilə müqayisədə dövlət orta ixtisas təhsili müəssisələrinə üstünlük verib. Abituriyentlərin belə gözlənilməz seçim etmələrinin bir çox səbəbləri var. Bunların sırasında təhsil haqqını, diplomun əmək bazarındakı dəyərini, ali təhsil müəssisəsində təhsilin səviyyəsini və s. göstərmək mümkündür.

Bu məlumat 2018/2019-cu tədris ili üçün Azərbaycan Respublikasının ali və orta ixtisas təhsil müəssisələrinə tələbə qəbulu və ümumtəhsil müəssisələri üzrə buraxılış imtahanları ilə bağlı Dövlət İmtahan Mərkəzinin elmi-statistik təhlilində yer alıb. Hesabatda bildirilir ki, özəl ali təhsil müəssisələrindən fərqli olaraq dövlət ali təhsil müəssisələrində plan yerləri ümumilikdə 90,50 faiz dolub. Ən yüksək göstərici III ixtisas qrupunda (95,85 faiz), ən aşağı göstərici isə II ixtisas qrupunda (87,33 faiz) qeydə alınıb.

TƏRS BAXIŞ

# “AXH” də getdi, növbə kimindir?

## AMİP funksioneri: “Bu qurumun bünövrəsi düzgün qoyulmadı, bir-birinə zidd qüvvələr və bir-birinə nifrət edən şəxslər bura qəbul edildi”

***İki yerə parçalanmış “Azərbaycan Xalq Hərəkatı”nda suların durulmayacağı öz təsdiqini kifayət qədər tapıb. Maraqlı məqam da budur ki, yarandığı dövrdən başlayaraq, bu qurumda söz-söhbətlər və intriqalar yaradan əsas tərəf, məhz AMDP sədri İsgəndər Həmidovdur. Yalnız öz maraqları kontekstindən çıxış edərək, şəxsi “liderliyini” qorumağa, bu vasitə ilə söz sahibi olmağa çalışan İ.Həmidov normal məsləhət və tövsiyələrdə bulunanların fikir və düşüncələrini qulaqardına vurur, özündən başqa kimsənin düşüncələrini tərəfdarları ilə paylaşmır. Xüsusilə, digər insanların fikirlərini bölüşməyən İ.Həmidovun aldığı cavab, birmənalı olaraq, istefalarla nəticəsini tapır.***



### Əli Orucov: “Birliklər yaradılarkən partiyadaxili müzakirələrdən və buraxılan səhvlərin analizindən keçmədən, bəzən tələm-tələsik yaradılır”

Məsələ ilə bağlı AMİP-in katibi Əli Orucovun fikirləri maraq doğurur. Belə ki, mətbuata açıqlamasında mövzu ilə bağlı fikirlərini bölüşən müxalifətçi partiya funksioneri deyib ki, heç bir format ideal və əbədi deyil. “Ona görə də, bu vaxtadək saysız-hesabsız birliklər, ittifaqlar və bloklar yaradılıb” deyə qeyd edən AMİP təmsilçisi əlavə edib ki, adətən, müxalifət düşərgəsinin birləşməsi seçki dönəmlərinə təsadüf edir: “Lakin bu ittifaqlar məhdud müddət üçün nəzərdə tutulduğundan, uzun müddət yaşaya bilməyiblər. Son dövrlər cəmiyyətdə müşahidə olunan aktivlik müxalifəti də hərəkətə gətirdi və bir neçə görüşlərini və tədbirlərini birgə keçirə bildi. Ardınca “Azərbaycan Xalq Hərəkatı” adlı bir qurum da yaradıldı. Lakin bu qurumun bünövrəsi düzgün qoyulmadı. Bir-birinə zidd qüvvələr və bir-birinə nifrət edən şəxslər bura qəbul edildi. Nəticəsi də bəllidir”.

Ə.Orucov, həmçinin, belə bir iddia da irəli sürüb ki, müxalifətin birliklərlə bağlı strategiyası da, baxışları da uzun illərdən bəri dəyişməz qalıb. Belə ki, birliklər yaradılarkən, partiyadaxili müzakirələrdən və buraxılan səhvlərin analizindən keçmədən, bəzən tələm-tələsik yaradılır.

### Siyasi məzarlığa gedəcək növbəti qurum “Milli Şura”dır

“Burada partiyaların ideoloji baxışları, cəmiyyətdəki gücü və nüfuzu, hətta siyasi liderlərin keyfiyyətləri nəzərə alınmır. İllərlə bir-birinə qənim kəsilən, bir-birini məhv etməyə çalışanlar, bir günün içində müttəfiqə çevrilirlər. Yaxud da “bir özü, bir papkası” olan partiya sədri elə iddialara düşür ki, sanki ölkənin taleyi ondan asılıdır və s.”

Ümumiyyətlə, görünən budur ki, artıq tarixin arxivinə qovuşan növbəti müxalifət birliyi - “AXH” də “SİD-SUH”un, “DUBB”un, “MKM”in, “Bizim Azərbaycan”ın, “Azadlığ”ın, “İctimai Palata”nın və s. çoxsaylı siyasi ölümə düçar olmuş təşkilatların “uyuduğu” məzarlığa doğru gedir. Növbə isə, çox yəqin ki, “Milli Şura”nındır.

**Rövşən RƏSULOV**

## “750 minlik əhalinin qovulduğu ərazidə onlar guya seçki keçirirlər”

***“Ümumiyyətlə Azərbaycanın işğal altındakı torpaqlarda keçirilən istənilən aksiya təbiidir ki, qanunsuzdur. Çünki bu torpağın əsil sahibləri orda deyillər. Bu mənada keçirilən istənilən aksiya, o cümlədən də seçki kampaniyaları ümumi ictimai rəyi əks etdirə bilməz”. Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.***



“O baxımdan Ermənistanın işğalı altındakı Azərbaycan torpaqlarında seçki adı altında keçirilən o məzhəkə təbiidir ki, dünya tərəfindən ciddi qəbul edilmir. Hətta yaxın qonşu Gürcüstan belə o seçkiləri tanımadığı haqqında bəyanat verir. Yəni ermənilər əslinə qalanda bu cür seçki tamaşaları, teatrları təşkil etməklə özlərini gülünc günə qoymuş olurlar. Dünya çörəyi qulağına yemir. Hamı bilir ki, ora işğal altındakı torpaqlardır. Təbii ki, işğal altındakı torpaqlarda da hər hansı seçkidən söhbət gedə bilməz. Orada hərbi rejim hakimdir. Təbiidir ki, hərbi rejimin hakimliyi altında xalqın səs verməsi, hər hansı formada öz iradəsini ifadə etməsi mümkün deyil. Bununla belə bu gün Qarabağ və ətraf rayonlardan Azərbaycan əhalisi faktiki olaraq son nəfərinə kimi qovulub çıxarılıb. Yəni 750 minə qədər azərbaycanlı oradan qovulub. Yerdə qalan isə 70-80 min ermənidir. İndi siz təsəvvür edin ki, 750 minlik əhalinin qovulduğu bir ərazidə onlar guya seçki keçirirlər. Axı onlar kimin rəyini öyrənirlər və yaxud da kimin seçkidə iştirakını təmin edirlər”-deyə, A.Həsrət fikrini tamamlayıb.

**Ceyhun Rasimoğlu**

# Sosial şəbəkənin məşhurlaşdırdığı Aslan İsmayılov

## “Ədalət” bayrağı altında qanun tələb edən Aslan İsmayılov günahsız insanların qanını necə təmizləyəcək?

***Qondarma “hüquqşünas” Aslan İsmayılov zaman-zaman bir sıra qanunsuz əməllər törədərək, dağıdıcı müxalifətin, xüsusilə, Avropada yaşayan satqınların əməllərini dəstəkləməklə, “ədalət”dən dəm vurur. Özü də öz çirkin və böhtan xarakterini sosial şəbəkələrdə göstərməklə özünü “güclü vəkil” sayır. Minsifətlilik simvolu olan A.İsmayılov, Ədalət Partiyasından və İlyas İsmayılovdan öz əxlaqına uyğun bir şəkildə aralanaraq, növbəti dayanacağı Rüstəm İbrahimbəyovun çətirinin altı oldu. Azərbaycan hakimiyyətindən incik düşmüş və 2013-cü il seçkilərində Rusiyanın əlaltısı kimi prezidentliyə namizəd olmağa hazırlaşan R.İbrahimbəyov 2009-cu ildə “Ziyalılar Forumu” adlı bir qurum yaradarkən, A.İsmayılov həmin qurumun yaradıcılarından olmaqla, özünü R.İbrahimbəyovun əsas dayaqlarından biri kimi göstərməyə başladı.***

Eyni erməni xislətli, satqınların birləşdiyi bu qurumda, ancaq A.İsmayılov kimilər bir yerdə ola bilərdi. Çünki hər ikisi üçün milli-mənəvi dəyər, dövlətçiliyə xidmət kimi anlayışlar yoxdur. O, yalnız öz şəxsi mənfəətlərini üstün tutan adamdır. Dünyaya öz cibindən baxan “hüquqşünas” mənfəətləri naminə, nəinki yaxın dostlarını, hətta dövlətinin milli maraqlarını hərraca çıxara biləcək xarakterdədir. Hər halda, vaxtilə onunla səngərdə dayanan köhnə dostları bunu etiraf edirlər.

“Yeni Müsavat” qəzetinin təsisçisi və baş redaktoru Rauf Arifoğlunun qələmə aldığı “Aslan İsmayılov niyə vətən xaininə qoşuldu” sərlövhəli yazısını da bu qəbildən saymaq olar: “Aslan İsmayılovun reketçiliyi cinayət tərkibli oyun, pis nümunə və böyük təhlükədir. Onun əməllərinə son qoyulması Azərbaycanın ləyaqətli insanlarının, ölkənin iqtisadi inkişafı üçün çalışan iş adamlarının, milli-mənəvi dəyərlərimizə sahib çıxan ziyalıların, media nümayəndələrinin, hüququn, qanunvericiliyin və müstəqil məhkəmə sisteminin şantajdan xilas edilməsidir”.



### Əli Orucov: “Aslan İsmayılov “beşinci kolon”un Azərbaycanda nümayəndəsidir”

AMİP funksioneri Əli Orucov açıqlamasında deyib ki, A.İsmayılov yol kənarında dayanıb, gəlib-gedənlərə söz atmaqla məşğul olur: “Ən böyük xəyanətkar elə onun özüdür. Görünür, A.İsmayılov Sumqayıt hadisələrini unudub. Hələ Sumqayıt hadisələri dövründə, bu hadisənin araşdırılması üçün Kreml Aslan İsmayılovu göndərdi və onun əli ilə günahsız insanlara ən ağır cəzanı verdilər. Hətta bu məsələ ilə bağlı həmin dövrdə hakim olan şəxs özü dili ilə dedi. A.İsmayılov Rusiyanın xüsusi xidmət orqanına bağlı bir adamdır. “Beşinci kolon”un Azərbaycanda nümayəndəsidir. Aslan kimi adamların nə deməsi bizim üçün vacib deyil. Çünki küçədə dayanıb ona-buna söz atmaqdan, kiminsə qarasına danışmaqdan başqa onun əlindən nə gəlir ki?”

Ə.Orucova görə, bu adam, əslində, ermənilərlə iş birliyindədir və onların bir nömrəli havadarıdır: “Belə bir adam ölkənin və millətin taleyini düşünənlər barədə başqa nə deyəcək ki? Bu, ona müəyyən erməniпərəst dairələr tərəfindən verilmiş bir vəzifədir və təəssüf ki, onun kimi bir adam bunu davam etdirir. Xatircəm olun və Aslan İsmayılovun ağlayıb-sızlamağa, bu özünübilməzin əlinə “ədalət” bayrağı alıb, boğuq səslə qulaqlarınızı cingildətməyinə baxmayın. Bu adam bilir ki, xirtdəyə qədər zibilin içindədir və bu vaxta kimi gizlətdiyi cinayətlərə görə, gec-tez məsuliyyətə cəlb olunacaq. “Emre Piliç” layihəsi, torpaq biznesi, “hədiyyə” edilən ofisin sonrakı dava-dalaşı, dəyəri yüz minlərlə ölçülən mal-mülklərin ələ keçirilməsi həqiqətənmi bir başısoyuğun olmayan “təmiz” əlləri ilə pak-pakizə həyata keçirilib? Obyektlərə qoyulan “hüquqi tas” necə!? Bu kəm (yarı, yarımçıq) sər (ağıl) sahibinin fırıldaqları haqqında bizlərə o qədər incə detallar bəllidir ki, hələ ki, susmağa imkan veririk ki, öz paxırlarını açsın, deyə biləcəklərini desin, etirazlarını bacardığı qədər səsləndirsin”.

Gözəl deyim var: “zınqırovlu köpəklərin səsini zınqırov boğar”. Çox hücum etmək, hər kəsi “tutmağa” can atmaq, axırda insanın ağzında bircə dənə də salamat dişin qalmamasına səbəb olar. Bax, bu gün A.İsmayılov bu yolu tutub”.

Harda aş, orda A.İsmayılovdur. “REAL”a qarşı olan təzyiqlərə etiraz olaraq, onların tədbirinə qatıldım” deyən A.İsmayılovun dediyindən, belə çıxır ki, bu ölkədə kim varsa, hamısı əqidəsini dəyişib, hər kəs yolunu azıb və bircə “təmiz” adam var, o da Aslanın özüdür. A kişi, camaat dinmir, dinmir də, özünü niyə öldürürsən axı? Sən o A.İsmayılov deyilsən ki, bir neçə il bundan öncə, dövlət başçısı ilə görüşəcəyini camaata car eləmişdin, ötən əsrin əvvəllərində isə “Elçibəy”çi oldun, 1998-ci ildə Etibara vəkillik etdin, 2005-ci ildə “İsa”çı rolunda çıxış eləsən də, az sonra müsavatçılar səni qərargahlarından qovdular. 2013-cü ildən bəri guya “şura”çısan, gah Ə.Kərimliyə, gah da C.Həsənliyə sağdan-soldan dürtülməyini heç kim başa düşə bilmir. Bu, sən A.İsmayılovsan ki, dünən Etirbar Məmmədova can deyirdin, bu gün onu “satqın” adlandırdın. Minsifətlilik simvolusan ki...

**R.HÜSEYNOVA**

# Azərbaycanda insanların müraciət etmək hüququnun təmin edilməsində Müvəkkilliyin rolu

***Azərbaycanda müraciət etmək hüququnun daha səmərəli təmin edilməsi məqsədilə Müvəkkil ötən dövrdə "Vətəndaşların müraciətlərinə baxılması haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsini təklif etmişdir. Bu baxımdan, layihəsinə Müvəkkilin də təkliflər verdiyi "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi təqdirəlayiqdir.***

Ölkəmizdə dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər davam etdirilmiş, dövlət orqanlarının çoxunda əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilmişdir. Həmin xidmətlər bürokratik əngəllərin və mümkün korrupsiya hallarının qarşısının alınmasında və aradan qaldırılmasında, habelə, əhalinin dövlət xidmətlərindən maneəsiz istifadə etməsində böyük əhəmiyyət daşımaqdadır.

200-dən artıq elektron xidmət göstərən və artıq 8 milyon müraciət qəbul edən "ASAN Xidmət" mərkəzlərinin fəaliyyəti müraciətlərin vaxtında cavablandırılmasında, bürokratik əngəllərin qarşısının alınmasında mühüm önəm daşımışdır. Bunun nəticəsidir ki, ölkə Prezidentinin müvafiq göstərişlərinə əsasən, bu mərkəzlərə həvalə olunan xidmətlərin sayı, bununla yanaşı da, əhali razılığı getdikcə artmaqdadır.

Bütövlükdə, "ASAN Xidməti"nin tətbiqi demokratik idarəetmənin təkmilləşməsi, süründürməçiliyin, bürokratik əngəllərin, korrupsiyanın qarşısının alınması ilə tədricən aradan qaldırılması, dövlət-vətəndaş münasibətlərinin təkmilləşməsi üçün geniş real imkanlar yaratmışdır.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqlisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı yekun nitqində də demişdir: "ASAN Xidmət"in, əgər belə demək mümkündürsə. xalq tərəfindən bəyənilmə əmsalı 100 faizə yaxındır. Bu ictimai xidmətlər, korrupsiyaya qarşı mübarizə sahəsində, doğrudan da, inqilabdır."

Dövlət qurumları, habelə, idarə, müəssisə və təşkilatlar tərəfindən vətəndaşların müraciət etmək hüququnun təmin edilməsi sahəsində müsbət dəyişikliklər diqqəti cəlb etmişdir. Bununla belə, ölkə konstitusiyası ilə vətəndaşlara verilmiş istənilən hüququn və ya azadlığın pozulması ilə bağlı müraciət hüququndan istifadə edərək, səlahiyyətli dövlət qurumlarına, yerli icra strukturlarına, idarə, müəssisə və təşkilatlara müraciət edən insanların bu hüququnun bir sıra hallarda həmin orqanlar tərəfindən təmin edilməməsi onların digər hüquqlarının da pozulmasına səbəb olur, hüquq pozuntusunun qarşısının alınmasında və ya pozulan hüququn bərpa edilməsində ciddi maneələr yaradır.

Müraciət etmək hüququ ilə bağlı daxil olmuş 1.216 müraciət üzrə aparılmış araşdırmalar nəticəsində, vətəndaşların bu hüququnun pozulması halları aradan qaldırılmışdır. Həmçinin, müraciətlərdə qaldırılmış məsələlər üzrə tədbirlər görülmüş, ərizəçiləri narahat edən məsələlərə aydınlıq gətirilmiş və onlar bu barədə məlumatlandırılmışlar.

Müraciət etmək hüququnun təmin edilməsi sahəsində vəziyyətin qanunla müəyyən edilmiş tələblərə uyğun qaydada qurulması məqsədi ilə Müvəkkil tərəfindən bir sıra tədbirlər görülmüşdür.

Bəzən vəzifəli şəxslər tərəfindən vətəndaşların qəbul edilməməsi, müraciətlərə cavab verilməməsi, cavabın gecikdirilməsi, formal və əsaslandırılmamış cavablar verilməsi, cavabların yazılı qaydada verilməməsi, xüsusilə də, süründürməçilik hallarına yol verilməsi, müraciət etmək hüququnun pozulmasına səbəb olmuşdur.

Aparılmış araşdırmaların nəticəsi olaraq, müraciətlərdə qaldırılmış məsələlər üzrə təxirəsalınmaz, təcili tədbirlər görülmüş, ərizəçiləri narahat edən məsələlərə aydınlıq gətirilmiş, məlumatlandırma və izahat işləri aparılmış, bununla da, vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş, bəzən başqa hüquq pozuntularının qarşısı alınmışdır.

Təhlil və araşdırmalar nəticəsində, müəyyən edilmişdir ki, bır sıra mərkəzi dövlət qurumlarında və onların yerli struktur bölmələrində, yaxud tabeli təşkilatlarında müraciətlərin təqdim edilməsi, sənədlərin alınması və qəbulu zamanı süründürməçilik halları və pozuntular davam etməkdədir.

Şikayətlərin araşdırılması prosesində müvafiq dövlət qurumuna göndərilmiş sorğuya verilmiş cavabda məsələyə baxılacağı və nəticəsi barədə əlavə məlumat veriləcəyi bildirilsə də, gözlənilən əlavə cavabın göndərilməməsi vətəndaşların təkrar şikayətlərinə, hüquqlarının pozulmaqda davam etməsinə səbəb olur.

Müvafiq çoxsaylı dövlət qurumlarına, icra strukturlarına və yuxarı instansiyalara müraciətləri cavabsız qalan və ya qaneedici cavab almayan bir sıra vətəndaşlar Müvəkkilə müraciət etmiş, hüquqlarının müdafiəsində köməklik göstərilməsini xahiş etmişlər.

Mərkəzi qurumlar tabeli strukturların müraciətlərə baxılması üzrə fəaliyyətini daim nəzarətdə saxlamalı, zəruri hallardayetərlitədbirlər görməlidir. Hər bir dövlət qurumu, yerli icra strukturu, xüsusilə də, vətəndaşlarla ünsiyyətdə olan hər bir məmur öz vəzifələrinin icrası zamanı, ilk, ölkəmizdə demokratik və hüquqi dövlətin və vətəndaş cəmiyyətinin bərqərar olmasına xidmət etməlidir.

Müvəkkil ona müraciət etmək məcburiyyətində qalmış şəxslərin pozulmuş hüququnun Konstutusiya Qanunu ilə müəyyən edilmiş qaydada, öz səlahiyyətləri çərçivəsində bərpa edilməsi üzrə tədbirlər görmüş və bir çox hallarda buna nail olmuşdur.

Təqdim edilmiş müraciətlər və əlavə edilmiş sənədlər üzrə tədbirlər görməyən, zəruri araşdırmanı həyata keçirməyən, bununla da, vətəndaşın müraciət etmək hüququnu pozan müvafiq dövlət orqanları, idarə, müəssisə və təşkilatlar bir sıra hallarda məsuliyyətdən kənar qalmaq məqsədilə vətəndaşın barəsində şikayət verdiyi müraciətin daxil olmadığını da bildirmişlər.

Müvafiq dövlət orqanlarında şifahi müraciətlərin qeydiyyata alınmaması da onların hüququnun pozulmasına və süründürməçiliyə yol verilməsinə səbəb olmuşdur.

Dövlət qurumlarının məmurları vətəndaşların müraciət etmək hüququnun tanmin edilməsi məqsədilə onlarla izahat və hüquqi maarifləndirmə işi də aparmalıdır.

Müraciət etmək hüququnun səmərəli təmini məqsədilə yaradılmış regional elektron müraciət terminalları şəbəkəsi genişləndirilməsi, onlardan istifadənin görüşlərin keçirilməsi, onların problemləri ilə yerində tanış olunması işinin təkmilləşdirilməsi daim diqqət mərkəzində olmalıdır. Nöqsan və problemlərin vaxtında həll edilməsinə, hüquq pozuntularının qarşısının alınmasına yönəlmiş kəsərli tədbirlər görülməli, müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən xüsusilə yerli bölmələrə vo onların rəhbərlərinin işinə nəzarət gücləndirilməlidir.

Təhlil və araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, bir sıra mərkəzi dövlət qurumlarında vo onların yerli struktur bölmələrində, yaxud tabeli təşkilatlarında müraciətlərin təqdim edilməsi, sənədlərin alınması və qəbulu zamanı süründürməçilik halları və pozuntular davam etməkdədir.

Şikayətlərin araşdırılması prosesində müvafiq dövlət qurumuna göndərilmiş sorğuya verilmiş cavabda məsələyə baxılacağı və nəticəsi barədə əlavə məlumat veriləcəyi bildirilsə də, gözlənilən əlavə cavabın göndərilməməsi vətəndaşların təkrar şikayətlərinə, hüquqlarının pozulmaqda davam etməsinə səbəb olur.

Müvafiq çoxsaylı dövlət qurumlarına, icra strukturlarına və yuxan instansiyalara müraciətləri cavabsız qalan və ya qaneedici cavab almayan bir sırı vətəndaşlar Müvəkkilə müraciət etmiş, hüquqlarının müdafiəsində kömöklik göstərilməsini xahiş etmişlər.

Mərkəzi qurumlar tabeli strukturların müraciətlərə baxılması üzrə fəaliyyətini daim nəzarətdə saxlamalı. zəruri hallarda yetərli tədbirlər görməlidir. Hər bir dövlət qurumu, yerli icra strukturu, xüsusilə də, vətəndaşlarla birbaşa ünsiyyətdə olan hər bir məmur öz vəzifələrinin icrası zamanı, ilk növbədə, ölkəmizdə demokratik, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin bərqərar olmasına xidmət etməlidir.

Müvəkkil ona müraciət etmək məcburiyyətində qalmış şəxslərin pozulmuş hüququnun Konstitusiya Qanunu ilə müəyyən edilmiş qaydada, öz səlahiyyətləri çərçivəsində bərpa edilməsi üzrə tədbirlər görmüş və bir çox hallarda buna nail olmuşdur.

Təqdim edilmiş müraciətlər və əlavə edilmiş sənədlər üzrə tədbirlər görməyən, zəruri araşdırmanı həyata keçirməyən, bununla da vətəndaşın müraciət etmək hüququnu pozan müvafiq dövlət orqanları, idarə, müəssisə və təşkilatlar bir sıra hallarda məsuliyyətdən kənar qalmaq məqsədilə vətəndaşın barəsində şikayət verdiyi müraciətin daxil olmadığını da bildirmişlər.

Müvafiq dövlət orqanlarında şifahi müraciətlərin qeydiyyata alınmaması da onların hüququnun pozulmasına və süründürməçiliyə yol verilməsinə səbəb olmuşdur.

Dövlət qurumlarının məmurları vətəndaşların müraciət etmək hüququnun təmin edilməsi məqsədilə onlarla izahat və hüquqi maarifləndirmə işi də aparmalıdır.

Müraciət etmək hüququnun səmərəli təmini məqsədilə yaradılmış regional elektron müraciət terminalları şəbəkəsi genişləndirilməsi, onlardan istifadənin təşviqi üçün Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə yerlərdə treninqlərin keçirilməsi təklif edilmişdir.

Bəzən pozulmuş hüquqların bərpası və yol verilmiş hüquq pozuntusunun aradan qaldırıldığı hallarda, bu pozuntuya yol vermiş və ya onun aradan qaldırılmasına qeyri-peşəkar və məsuliyyətsiz yanaşmış məmurlar, o cümlədən, səlahiyyətli vəzifəli şəxslər qanunvericiliklə müəyyən edilmiş cəzalardan kənar qalırlar.

Müvəkkil İnzibatı Xətalar Məcəlləsinin 310.1-ci maddəsində onun qanuni fəaliyyətini məhdudlaşdırmağa və ya fəaliyyətinə müdaxilə etməyə görə, nəzərdə tutulmuş cərimə məbləğinin formal xarakter daşıdığı üçün artırılmasını təklif etmişdir. Yeri gəlmişkən, Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli Qanunu ilə yeni redaksiyada təsdiq edilən və 2016-cı il martın 1-dən qüvvəyə minən İnzibati Xətalar Məcəlləsinin 554-cü maddəsinə (Müvəkkilin qanuni fəaliyyətinə mane olma) əsasən, həmin məbləğ üç yüz əlli manatdan beş yüz manatadək artırılmışdır.

Şikayətlər üzrə araşdırmalar prosesindən bəzi dövlət qurumlarına, habelə, onların yerlərdəki struktur bölmələrinə göndərilən sorğu və tapşırıqlara bir sıra hallarda həqiqətə uyğun olmayan, qeyri-səmimi, yaxud formal cavabların verilməsi, həmçinin, şikayətçilərin təqib edilməsi və ya yazdıqları şikayətlərdən ən müxtəlif yollarla, məsələn, ərizəni yazarkən "acıqlı", yaxud "əsəbi" olması bəhanləri ilə imtina etməyə məcbur edilməsi, yaxud şikayət olunan dövlət orqanı (təşkilatı) tərəfindən dərhal yerində həll edilərək, heç bir problemin olmaması görüntüsünün yaradılması halları da olmuşdur.

Bütün bu hallar və mövcud vəziyyət onu göstərir ki, müraciətlərə baxılması sahəsində obyektivliyin, operativliyin və şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilən islahat tədbirlərinin davam etdirilməsinə, ictimai nəzarət institutunun tətbiqinə, dəstəklənməsinə və genişləndirilməsinə, hamçinin, mərkəzi dövlət qurumları tərəfindən müvafiq yerli struktur bölmələrinin işinə nəzarətin gücləndirilməsinə böyük ehtiyac vardır.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 11 sentyabr


## Dəmirlə zəngin qidaların qəbulu nə üçün vacibdir?

Hazırda dünyada 2 milyard insan anemiyadan əziyyət çəkir. Dəmir çatışmazlığı dəmirdefisitli anemiyaların yaranmasına səbəb olur. Bu isə xüsusi həssas əhali qrupunun - qadınların sağlamlığına, dünyaya gətirdikləri uşaqlarının immun sisteminin zəif olmasına, daha çox infeksiyalara məruz qalmasına, fiziki və intellektual inkişaflarına mənfi təsir göstərir. Odur ki, dəmirlə zəngin qidaların qəbul edilməsi olduqca vacibdir.




AZƏRTAC xəbər verir ki, bu barədə Qida Təhlükəsizliyi Agentliyinin hazırladığı maarifləndirici materialda deyilir. Dəmir insan orqanizmi üçün faydalı elementlərdəndir. Bir çox qidalarda olsa da, bəzi məhsullara əlavə olunur və qida əlavəsi kimi istifadə edilir. Hemoqlobinin əsas tərkib hissəsi olmaqla eritrosit zülalına daxildir və oksigeni ağciyərlərdən toxumalara ötürməklə orqanizmi oksigenlə zənginləşdirir. Dəmir orqanizmi oksigenlə təmin edən digər miyoqlobin zülalının da əsas tərkib hissəsinə daxildir, əzələdə mübadiləni dəstəkləyir və birləşdirici toxumanın sağlam inkişafına kömək edir.

Dəmir böyümə, nevroloji inkişaf, hüceyrələrin işləməsi və bəzi hormonların sintezi üçün də lazımdır. Qidada dəmir hem və qeyri-hem formasındadır. Bitki və dəmirlə zəngin olan qidalarda yalnız non hem dəmiri var. Ət, dəniz məhsulları və quş ətinin tərkibində həm hem, həm də qeyri-hem dəmiri olur. Nonheme dəmirinin qidada əsas qaynaqları qoz-fındıq, lobya, tərəvəz və taxıl məhsullarıdır.

Qidalarda dəmir ehtiyacının təxminən yarısı çörək, dənli bitki və digər taxıl məhsullarından gəlir. Bundan başqa ana südündə yüksək miqdarda bioyararlı dəmir var. Lakin bu, 4-6 aydan böyük uşaqların ehtiyaclarını ödəmək üçün kifayət etmir. Odur ki, mütəxəssislər tərkibində dəmir olan qida məhsullarının istehlakını tövsiyə edirlər. Bunlar əsasən qaraciyər (hamiləlik zamanı istifadə edilməsi məsləhət deyil), ət, paxlalı bitkilər, qoz-fındıq, quru meyvələr, tam taxıllı məhsullar, alma, yumurta sarısı, kələm, qırmızı çuğundur, kök, sarımsaq, soğan, noxud, balıq və balıq məhsulları, səhər yeməyi üçün bərkidilmiş dənli bitkilər, soya unu, tünd-yaşıl yarpaqlı tərəvəzlərdir.

Nəzərə almaq lazımdır ki, dəmirin yüksək miqdarda qəbul edilməsinin əks təsirləri də var. Məsələn, normadan artıq dəmir qəbulu qəbizlik, halsızlıq, qusma və mədə ağrısı kimi xoşagəlməz hallar yaradır. Odur ki, dəmirin gündəlik qəbulu müəyyən edilən normanı keçməməlidir.

## Sumqayıt sakinindən iki kiloqramdan çox marixuana götürülüb

Samux Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Sumqayıt şəhər sakini C.Bəylərov saxlanılıb.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi axtarış zamanı ondan 2,3 kiloqrama yaxın marixuana aşkar edilərək götürülüb. Faktla bağlı araşdırma aparılır.


## ELAN

ADPU-nun Biologiya ixtisası üzrə IV kurs tələbəsi Yaqubzadə Rufanə Yaşar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


**BAŞSAĞLIĞI**

Ramiq Muxtar ailəsi ilə birlikdə Elmira Əliyevaya həyat yoldaşı **Tahir Əliyevin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin***

## Ronaldo "Yuventus"da ilinə 31 milyon avro qazanır!



"La Gazzetta dello Sport" nəşri İtaliya A seriyasının ən yüksək maaş alan futbolçularının yeni siyahısını dərc edib. Bu məlumata görə, siyahıya "Yuventus"un hücumçusu Kriştiano Ronaldo başçılıq edir. Onun illik maaşı 31 milyon avrodur. Bu rəqəm isə 4 klubun - SPAL, "Udineze" (hər ikisi 30 milyon), "Breşia" (28 milyon) və "Verona"nın (25 milyon) futbolçularına verdiyi ümumi əmək haqqından çoxdur.

Siyahının ikinci pilləsində "Yuventus"un yarımmüdafiəçisi Matteys de Liqt (maaş-8 milyon, əlavə bonuslar -4 milyon), üçüncü pilləsində isə "İnter"in yeni transferi Romelu Lukaku (maaş - 7.5 milyon, əlavə bonuslar- 1.5 milyon) qərarlaşıb.

## "Avro 2020": Azərbaycan millisi ilk xalını qazanıb



Sentyabrın 9-də futbol üzrə Avropa çempionatının seçmə mərhələsi çərçivəsində Azərbaycan millisi növbəti oyununu keçirib. Millimiz "Bakcell Arena"da Xorvatiya yığmasını qəbul edib. İsveçrədən olan hakimlər briqadasının idarə etdiyi oyunun 11-ci dəqiqəsində yığmamızın qapısına təyin olunmuş 11 metrlik cərimə zərbəsini Luka Modriç dəqiq yerinə yetirib. Matçın birinci hissəsi Xorvatiya yığmasının minimal üstünlüyü ilə yekunlaşıb-1:0.

İkinci hissəyə Azərbaycan millisi daha fəal başlayıb. Oyunun 72-ci dəqiqəsində millimizin üzvü Təmkin Xəlilzadə baxımlı qola imza ataraq hesaba tarazlıq gətirib. Komandaların səylərinə baxmayaraq oyunun sonunadək hesab dəyişməyib. Beləliklə, görüş 1:1 hesablı heç-heçə ilə yekunlaşıb və komandamız Avropa çempionatının seçmə mərhələsində ilk xalını qazanıb. Bu komandalar arasında Xorvatiyada baş tutan görüş meydan sahiblərinin 2:1 hesablı qələbəsi ilə başa çatmışdı.

## Bakıda keçiriləcək bədii gimnastika üzrə dünya çempionatına 8500-dən çox bilet satılıb




Bakı daha bir irimiqyaslı beynəlxalq yarışa ev sahibliyi edəcək. Belə ki, gimnastların doğma məkanı Milli Gimnastika Arenasında 6 gün sonra möhtəşəm açılış mərasimi ilə ilin ən gözlənilən yarışlarından birinə - bədii gimnastika üzrə 37-ci dünya çempionatına start veriləcək.

AZƏRTAC Azərbaycan Gimnastika Federasiyasına istinadla xəbər verir ki, 62 ölkədən 300-dən çox gimnastı və minlərcə azarkeşi bir araya toplayacaq dünya birinciliyinə az vaxt qaldıqca bilet satışı daha da yüksəlməyə başlayıb. Bu günədək statistikaya əsasən 8 min 500-dən çox bilet satılıb. Satışın 45 faizini onlayn sistemlə xarici azarkeşlər həyata keçirib. Milli Gimnastika Arenası çempionat günlərində Rusiya, Türkiyə, Ukrayna, İsrail və Yaponiyadan olan fanatlarla yanaşı, Fransa, Almaniya, Bolqarıstan, İspaniya, İtaliya, Finlandiya, Xorvatiya, Niderland, Qazaxıstan, Malayziya, Meksika, Peru və Paraqvaydan olan azarkeşləri də qonaq edəcək.

Sentyabrın 16-22-də keçiriləcək çempionat təkcə bütün dünyadan olan bədii gimnastların birincilik uğrunda mübarizəsi ilə deyil, eyni zamanda, 2020-ci ildə Tokioda təşkil ediləcək XXXII Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıması ilə də əlamətdar olacaq.

## Xorvatiyalı qapıçı: "Xal itirməyi gözləmirdik"



"Xal itirməyi gözləmirdik. Yaxşı oynadıq. Hesab barədə nəsə demək isə üzücüdür. Ola bilsin, bizim rəqibdən daha güclü olmağımız hissi buna səbəb oldu". Qol.az-ın məlumatına görə, bu sözləri Xorvatiya millisinin qapıçısı Dominik Livakoviç Avro-2020-nin seçmə mərhələsində yığmamızla 1:1 hesabı ilə bərabərə qaldıqları oyunda barədə danışarkən deyib. O, komanda yoldaşı Nikola Vlaşiçin millimizin üzvü Təmkinin Messi kimi qol vurması haqda fikrinə belə münasibət bildirib: "O, haqlıdır. Təmkin bizim müdafiəni arxada qoyaraq qol vurdu". Xorvatiya millisinin digər üzvü Bruno Petkoviç isə matç sonrası yerli mətbuata bunları deyib: "Xorvatiya bu oyunda Slovakiyadakı kimi çıxış etmədi. Trnavada qol vurandan sonra da yaxşı hücumlar qura bilirdik. Millimiz nə birinci hissənin sonu, nə də ikinci hissənin əvvəllərində özündə deyildi. Bu oyunda Xorvatiya lazımi səviyyədə çıxış etmədi. Ümumən komandamız ikinci hissədə təhlükəli vəziyyət belə yarada bilmədi. İndi bu oyunu təhlil etmək bizim üçün çətindir. Qarşıdakı matçlara köklənməliyik.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600